

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 avqust
2026-cı il,
çərşənbə axşamı
№ 146 (7213)
Qiyməti
60 qəpik


## Ali Baş Komandanın siyasi iradəsi ilə...



**2023-cü il aprelin 23-də Azərbaycanın suveren ərazisində - Laçın-Xankəndi yolunun başlanğıcında qurulan "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsi ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasında həlledici strateji addım idi**

## Davamlı sosial siyasət...



Bax səh. 2

## 33 il sonra ədalətin bərpası

Bax səh. 4

## Bakı G20-də: Qlobal tərəfdaşlığa doğru...




Bax səh. 3

## Dövlət əmlakını özəl əmlakla dəyişdirmək mümkün olacaq

Bax səh. 5

## ABŞ ölkəmizdə maliyyə şəffaflığını qiymətləndirib

Bax səh. 5

## Aİ Rusiyaya qarşı ən böyük sanksiya paketini hazırlayır

Bax səh. 5

## Vannacci fenomeni: İtaliyada nə baş verir və Avropanın sağa dönüşü nə deməkdir?

Bax səh. 6




## Şərtlər bəlli oldu - ABŞ yenidən prosesi ələ alır

Bax səh. 6

## Hörmüz boğazı:
### İranın əlində güclü siyasi silah



Bax səh. 7

# Prezident İlham Əliyev Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko ilə görüşüb



Azərbaycan Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə dövlətimizin başçısının “X” sosial şəbəkə hesabında bildirilib.

Paylaşımda, həmçinin qeyd olunub: “20 ildən artıq davam edən tanışlığımız əsnasında xoş xatirələrimizi bölüşdük, Azərbaycan-Ukrayna münasibətlərinin möhkəmləndirilməsi istiqamətində gördüyümüz birgə işləri xatırladıq və əlaqələrin gələcək perspektivləri barədə fikir mübadiləsi apardıq.

Görüş zamanı Ukraynanın Azərbaycandakı səfiri tərəfindən mənə “İrpen şəhərinin fəxri vətəndaşı” vəsiqəsi təqdim edildi”.



# Davamlı sosial siyasət...





## Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır

Azərbaycan sosial dövlətdir. Prezident İlham Əliyev müxtəlif auditoriyalar qarşısındakı çıxışlarında dəfələrlə bəyan edib ki, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır.

Bu strateji kursa uyğun olaraq respublikamızın iqtisadi-maliyyə imkanları genişləndikcə sosial sferaya ayrılan vəsaitllərin həcmi də artırılır və vətəndaş məmnunluğunun yüksəldilməsi üçün daha genişmiqyaslı tədbirlər görülür. 2026-cı ilin birinci yarısının göstəriciləri təsdiqləyir ki, ölkəmiz dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinə uyğun olaraq özünün dərinməzmunlu sosial siyasətinə davamlı sadiqlik nümayiş etdirir.

**Büdcədə sosial sahənin prioritetliyi**

Azərbaycan bir qayda ölaraq özünün sosialyönümlü büdcəsi ilə fərqlənir və bu sahənin prioritetliyi cari ildə də qorunub saxlanılıb. 2026-cı ilin dövlət büdcəsində sosialyönümlü xərclər 2025-ci illə müqayisədə 236 milyon manat çox olmaqla 17 milyard 146 milyon manat həcmində müəyyənləşdirilib. Bu göstərici bütün büdcə xərclərinin təqribən 41,1 faizini təşkil edir. Bütövlükdə, son 7 ildə dövlət büdcəsində sosial istiqamətdə ayrılan vəsaitin həcmi 2,2 dəfə artıb.

Cari ilin sosial büdcəsinin xərclərində aşağıdakı istiqamətlər xüsusi çəkiyə malikdir:

- Sosial müdafiə və təminat: 4 milyard 873 milyon manat. Qeyd olunan rəqəm 2025-ci ilin göstəricisindən 121,2 milyon manat və ya 2,6 faiz çoxdur. Bu da son 7 ildə sosial müdafiə və sosial təminat istiqaməti üzrə ayrılan vəsaitin 2,1 dəfə artması deməkdir.

- Sosialyönümlü xərclərin strukturunda mühüm yer tutan sahələrdən biri kimi təhsil və elm xərclərinə ayrılan vəsait 5,2 milyard manat nəzərdə tutulub. Bu, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur. Ortamüddətli büdcə dövrü, yəni 2022-ci illə müqayisədə 2026-cı ildə təhsil və elm xərcləri 36 faiz artmış olur. Həmin xərclərin ÜDM-də xüsusi çəkisi 3,7 faiz, dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi isə 12 faiz (2025-ci illə müqayisədə 0,1 faiz-bənd çox) təşkil edir.

- Səhiyyə xərclərinə 2 milyard 52,4 milyon manat vəsait ayrılması nəzərdə tutulub ki, bu da 2025-ci illə müqayisədə 1,5 faiz, 2024-cü ilin icra vəziyyəti ilə müqayisədə isə 10,7 faiz çoxdur. Səhiyyə xərcləri ümumi büdcə xərclərinin 4,9 faizini təşkil edir.

Maliyyə Nazirliyinin məlumatına görə, 2026-cı ilin ilk altı ayında dövlət büdcəsinin xərcləri 16 milyard 775,5 milyon manat məbləğində icra edilməklə illik proqnozlaşdırılan dövlət büdcəsi xərclərinin 40,2 faizinə bərabər olub. Hesabat dövründə dövlət büdcəsi xərclərinin 11 milyard 642,5 milyon manatı və ya 69,4 faizi cari xərclərə, 4 milyard 188,2 milyon manatı və ya 25 faizi əsaslı xərclərə, 944,8 milyon manatı və ya 5,6 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə sərf edilib.

Eyni zamanda, bu ilin altı ayında dövlət büdcəsi xərclərinin 52,4 faizi və ya 8 milyard 787,1 milyon manatı sosialyönlü xərclərin (büdcə xərclərinin əməyin ödənişi fondu, qida məhsullarının alınması, təqaüd və sosial müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının alınması, icbari tibbi sığorta üzrə xərclər) maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 951,3 milyon manat və ya 12,1 faiz çoxdur.

**Pensiyalarda növbəti artımlar**

Dövlət başçısının təsdiqlədiyi müvafiq Qanuna əsasən, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2026-cı il üzrə xərcləri 8 milyard 483 milyon 70 min manat məbləğində müəyyən edilib. Xərclərin maliyyələşdirilməsi fondun 8 milyard 323,1 milyon manat gəlirləri və əvvəlki illərdən formalaşmış 159,97 milyon manat ehtiyat hesabına təmin olunacaq.

Fondun gəlirləri əsasən məcburi dövlət sosial sığorta haqları hesabına formalaşır. Bu mənbə üzrə daxilolmalar 6 milyard 591,1 milyon manat təşkil edir. Büdcənin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən fonda 1,7 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

Fondun xərclərinin 2026-cı ildə əsas hissəsi əhaliyə ödənişlərə yönəldilir. Belə ki, əmək pensiyalarının ödənilməsi üçün il ərzində 7 milyard 992,9 milyon manat, sosial sığorta haqları hesabına müavinətlərin verilməsi üçün isə 203,6 milyon manat vəsait ayrılacaq. Eyni zamanda, sanatoriya-kurort müalicəsi, sosial xidmətlərin təşkili, bank əməliyyatları və fondun idarəetmə xərcləri də büdcədə əksini tapıb.

Cari ilin birinci yarısında DSMF-nin ayrı-ayrı istiqamətlər üzrə fəaliyyəti uğurlu olub. Belə ki, birinci yarımildə fondun gəlirləri proqnozla müqayisədə 5 faiz və ya 197 milyon manat çox olmaqla 4 milyard 295 milyon manat təşkil edib. Qurumun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları proqnoza nisbətən 6 faiz və ya 199 milyon manat artaraq 3 milyard 432 milyon manat olub. Yanvar-iyun aylarında DSMF-nin xərcləri isə 4 milyard 124 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz və ya 380 milyon manat çoxdur.

Bu ilin birinci yarımilində DSMF tərəfindən pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz (368 milyon manat) çox olmaqla 3 milyard 916 milyon manat vəsait yönəldilib.

Cari ilin əvvəlindən pensiyalar 9,3 faiz indeksləşdirilərək artırılıb. 1 iyul 2026-cı il tarixə pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 594 manata, o cümlədən yaşa görə orta aylıq pensiyanın məbləği 632 manata çatıb. Cari ilin birinci yarımilində 23 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə bütövlükdə 201 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Birinci yarımildə ümumilikdə 2,2 milyon şəxsə pensiya, müavinət və təqaüd, ünvanlı sosial yardım ödənilib, sosial təminat növlərinin hər biri üzrə ödənilən vəsaitlərdə artım olub.

Eləcə də Dövlət Sosial Müdafiə Fondu tərəfindən cari ilin birinci yarımilində dövlət büdcəsi hesabına 1 milyon 39 min şəxsə 1 milyard 126 milyon manat müavinət və Prezidentin aylıq təqaüdü ödənilib.

Onlardan:

- 505 min nəfərə müavinət olaraq 634 milyon manat,

- 405 min nəfərə Prezident təqaüdü olaraq 407 milyon manat,

- 129 min nəfərə sosial sığorta hesabına müavinət olaraq 85 milyon manat ödəniş həyata keçirilib.

Ödənilən vəsait ötən ilin müvafiq dövrünə nisbətən müavinətlər üzrə 15 faiz, təqaüdlər üzrə 17 faiz, sosial sığorta hesabına müavinətlər üzrə 6 faiz çox olub.

Bu ilin 6 ayında daha 75 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən isə 954 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

Həmçinin ölkəmizdə dövlətimizin başçısının 19 mart 2026-cı il tarixli fərmanı ilə tibbi sığorta sisteminin idarəedilməsinin daha təkmil və effektiv təşkilinə hədəflənən yeni mühüm islahat mərhələsinə keçilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin birləşdirilməsi əsasında nazirliyin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi yaradılıb. Hazırda icbari tibbi sığorta üzrə xidmətlərin tam rəqəmsallaşdırılması işləri aparılır. Əsas prioritetlər icbari tibbi sığorta üzrə xidmətlər üçün göndərişlərin şəffaflığının və operativliyinin təmin edilməsi, əhalinin tibbi xidmətlərlə təminatı işinin keyfiyyətinin yüksəldilməsidir.

**200 mindən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu ilin birinci yarımilində 200,7 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 82 min şəxs münasib işlərlə təmin olunub, 385 şəxs kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. O cümlədən 9,1 min şəxs üçün peşə hazırlığı kursları təşkil olunub, 109,2 min şəxsə isə peşəyönümü xidmətlər göstərilib.

Dövlət Məşğulluq Agentliyinin icra etdiyi “İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi” proqramı üzrə bu il daha 1001 şəxsin işlə təminatı həyata keçirilib. Onların məşğulluğu üçün 190 işəgötürənlə əməkdaşlıq müqaviləsi imzalanıb. 2020-ci ildə icrasına başlanan bu proqram üzrə ötən dövrdə ümumilikdə 5800-dək şəxs iş yeri əldə edib. Qeyd edək ki, “İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi” proqramı çərçivəsində məşğulluğu təmin olunan şəxslərin 1 il ərzində əməkhaqlarının bir hissəsini Dövlət Məşğulluq Agentliyi ödəyir.

Eləcə də, işğaldan azad edilmiş ərazilərə - doğma yurdlarına köçürülən sakinlərin məşğulluğunun təminatı işləri cari ildə də davam etdirilərək daha da genişlənib. Sakinlərdən məşğulluğu təmin edilənlərin sayı 11,1 mini ötüb. 900-dən çox sakin isə özünüməşğulluq proqramına cəlb olunub. Əsas hədəf qeyd edilən ərazilərdə məşğulluq proqramlarının genişləndirilməsidir və işəgötürənlərlə sıx əməkdaşlıq şəraitində bu sahədə birgə işlər görülür.

**Reabilitasiya xidmətlərinin əhatə dairəsi genişlənir**

Reabilitasiya xidmətlərinin genişləndirilməsi də böyük sosial əhəmiyyət daşıyır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyi bu ilin birinci yarımilində əlilliyi olan 70 min şəxsi reabilitasiya xidmətləri ilə təmin edib. Onlardan 36,6 mininə ambulator, 17,2 mininə stasionar və icma əsaslı, digərlərinə səyyar və onlayn formada, sosial-psixoloji istiqamətlər üzrə reabilitasiya xidmətləri göstərilib.

Reabilitasiya müəssisələrində ənənəvi üsullarla yanaşı, qabaqcıl dünya təcrübəsinə uyğun reabilitasiya metodları (robotik, sosial-psixoloji reabilitasiya, yoqa, hippoterapiya, rəqs terapiyası və s.) tətbiq edilir. Bu müəssisələr tərəfindən stasionar və ambulator xidmətlərlə bərabər, icma əsaslı, telereabilitasiya, səyyar formalarda da reabilitasiya xidmətləri göstərilir.

O cümlədən Sosial Xidmətlər Agentliyi cari ilin birinci yarımilində əlilliyi olan 7424 şəxsi 297 min reabilitasiya vasitəsi ilə təmin edib. Qeyd olunan reabilitasiya vasitələrindən 666-sı təkərli oturacaq (o cümlədən 18-i mühərrikli təkərli oturacaq), 1133-ü aşağı və yuxarı ətraf protezi, 1805-i əsa, qoltuqaltı və dirsəkaltı ağac olub. Həmçinin əlilliyi olan şəxslərə 3880 cüt protez və ortopedik ayaqqabı, 608 eşitmə aparatı, 127 korset və s. reabilitasiya vasitələri təqdim olunub. Reabilitasiya vasitələrini almaq üçün özlərinin və ya yaxınlarının Bakıya, agentliyin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə gəlmək imkanı olmayan əlilliyi olan şəxslərə bu vasitələr evlərinə aparılaraq təqdim olunub.

**Müxtəlif sosial xidmətlərin proaktiv qaydada təqdim olunması**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidmətlərinə 2026-cı ilin yanvar-iyun aylarında 3,9 milyon müraciət edilib. Bəhs olunan dövrdə 143 min təyinat e-infrastruktur üzərindən proaktiv qaydada həyata keçirilib, əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə 389 min elektron arayış verilib.

Son illərdə sosial sahədə icra olunan geniş elektronlaşma proqramı nəticəsində qurumun xidmətlərinin 90 faizdən çoxu e-qaydada təqdim olunur. Nazirliyin e-sistemlərinin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlardan sorğular da daxil olmaqla, bu ilin birinci yarımilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e-sistemləri üzərindən sorğu, müraciət və xidmət sayı 204 milyon olub.

Son 6 ayda elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər davam etdirilərək daha da genişləndirilib. Bu ilin mühüm nailiyyətlərindən biri olaraq, nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu proaktiv və şəffaf, əlçatan, ədalətli və inklüziv xidmətlərinə görə BMT tərəfindən Dövlət Xidmətləri Mükafatına layiq görülüb. BMT-yə 63 ölkədən təqdim olunmuş 700 təşəbbüs arasından DSMF və digər ölkələrdən 7 müvafiq dövlət qurumu bu mükafatla təltif edilib. İyunun 23-25-də Gürcüstanın Tbilisi şəhərində keçirilən, 100-ə yaxın ölkədən 420 nümayəndənin iştirak etdiyi BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində təşkil olunan təltifetmə mərasimində mükafat DSMF-nin İdarə Heyətinin sədri Zəka Mirzəyevə təqdim olunub.

BMT-nin rəsmi bəyanatına görə, onun Dövlət Xidməti Mükafatı (“UN PSA”) dövlət xidmətləri sahəsində mükəmməlliyin tanınmasıdır. Bu mükafatla dünyanın müxtəlif ölkələrində daha səmərəli və çevik dövlət idarəçiliyinin formalaşmasına töhfə verən dövlət qurumlarının yaradıcı nailiyyətləri və fəaliyyət nəticələri təltif edilir. Fond BMT-nin Dövlət Xidmətləri Mükafatına sosial təminat sahəsində son illər həyata keçirdiyi innovativ islahatlara, xüsusilə sosial ödənişlərin proaktiv qaydada təyin olunmasına, rəqəmsal texnologiyalar əsasında qurulmuş vətəndaşyönümlü xidmət modelinə, sosial xidmətlərin əlçatanlığının, operativliyinin, şəffaflığının və inklüzivliyinin artırılması istiqamətində əldə etdiyi mühüm uğurlara görə layiq görülüb.

*Mübariz ABDULLAYEV*

# Bakı G20-də: Qlobal tərəfdaşlığa doğru...




## Yeni dünya nizamında Azərbaycan geoiqtisadi güc kimi çıxış edir

Xarici siyasət kursunda əməkdaşlıq, tərəfdaşlıq və təhlükəsizlik amillərini ön plana çıxaran Azərbaycan müasir çağırışlara adekvat cavab verməkdədir. Yeni iqtisadi münasibətlər sisteminin formalaşdığı hazırki dövrdə ölkəmiz bir sıra parametrlər üzrə qlobal dünyanın diqqətini cəlb edir. Xüsusilə, beynəlxalq iqtisadi münasibətlərdə real və praqmatik rolu, qlobal təşəbbüskarlığı, qısa zamanda orta güc statusu qazanması Azərbaycan üçün mühüm üstünlüklər yaradır. Prezident İlham Əliyevin yürütdüyü siyasət əməkdaşlığa, qarşılıqlı milli maraqların qorunmasına əsaslandığı üçün dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana etimad göstərir, ölkəmizi öz sıralarında görməkdən məmnunluq duyduğunu dilə gətirirlər. Təsadüfi deyil ki, Azərbaycan artıq qlobal çağırışların müzakirə masalarında təmsil olunur. Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevi G20-yə dəvət edib. Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında baş tutmuş telefon danışığı zamanı dövlətimizin başçısı G20-yə dəvətə görə ABŞ Prezidentinə təşəkkür edib. Bu, ölkəmizə olan xoş münasibətin təzahürü kimi qiymətləndirilib.

## Regional liderlikdən qlobal orta güc statusuna...

Vurğulandığı kimi, Azərbaycan dövləti xarici siyasət kursunda çoxvektorlu yanaşmaya xüsusi əhəmiyyət verir. Bu kursun ən mühüm dayaqlarından biri çoxtərəfli əlaqələrin inkişafı, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsidir - ölkəmiz təmsil olunduğu hər bir beynəlxalq platformada fəallığı və təşəbbüskarlığı ilə seçilir, qlobal miqyasda əhəmiyyətli aktor kimi qəbul olunur. Azərbaycanın iqtisadi əməkdaşlığa verdiyi töhfələr, enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat dəhlizlərinin inkişafında yaratdığı imkanlar və qlobal təhlükəsizlik prizmasından Cənubi Qafqazda sülh gündəmini reallaşdırması bu fəallığın konkret göstəriciləridir.

Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Ərazi baxımından kiçik olsa da, Azərbaycanın dünyada cərəyan edən iqtisadi-ticari proseslərə aktiv müdaxilə imkanı mövcuddur. Nəticə isə göz önündədir - bu gün ABŞ, Aİ, Türkiyə, ərəb-islam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Çin, hətta fərqli qitələrin təmsilçiləri Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq aləmlə əlaqələri və əməkdaşlıq coğrafiyası genişlənməkdədir.

Azərbaycanın bu cür xüsusi anlam daşımasının arxasında isə arqumentlər və faktlar dayanır. 2020-ci ildən başlayaraq formalaşan yeni dünya düzəni özündə əsas etibarı ilə iqtisadi şəkilləndirməni ehtiva etməkdədir - yeni dünya "yol strategiyası"na əsaslanaraq özünün ticari doktrinasını formalaşdırır. Azərbaycan bu gün ən əhəmiyyətli qovşaqlardan biri kimi Avrasiyanın mərkəzində birləşdirici funksionallıq daşıyır. Orta Dəhliz vasitəsilə Qərbi Şərqə bağlayan, Mərkəzi Asiya ilə Kiçik Asiyanı qovuşduran, oradan isə Avropa məkanına inteqrasiyanı reallaşdıran Azərbaycan böyük bir anlamda ticari körpüyə çevrilib. İstər enerji, istərsə də digər sahələrin inkişafı üçün əsas meyara çevrilmiş Azərbaycan öz üstün-

## Qlobal anlam daşıyan siyasi gündəm...

lüklərini məharətlə iqtisadi dividendə çevirir - dünyanın bizimlə birgə olmasının ən əsas amili isə odur ki, biz bu dividendi lokal deyil, qlobal müstəvidə dəyərləndiririk. Başqa sözlə, Azərbaycanın yaratdığı bu mənzərədən bütün dünya iqtisadi - ticari baxımdan bəhrələnir. Qeyd olunduğu kimi, müəyyənləşdirilən və həyata keçirilən xarici siyasət kursu özündə qlobal həmrəyliyi və beynəlxalq əməkdaşlığı birləşdirməklə yanaşı, yeni layihələrin formalaşdırılmasını və təbliğini də ehtiva edir. Yaranan mənzərənin əsasında dayanan faktorları qruplaşdırmağa çalışsaq:

- Tranzit xarakterli mühüm bir regionda təhlükəsizlik amilinin yaradılması;
- İqtisadi münasibətlərdə yalnız şəffaflığa və dürüstlüyə, dostluğa əsaslanan tezislərin ortaya qoyulması;
- Coğrafi imkanların yaxın-uzaq tərəfdaşlar üçün səmərəli istifadə halına gətirilməsi;
- İstər ənənəvi, istərsə də yeni enerji mühitində etimadlı tərəfdaş kimi özünü sübut etməsi;
- Fərqli sivilizasiyaların birgə əməkdaşlıq planlarının formalaşdırılmasında yer alması kimi vacib ştrixlər önümüzə çıxacaq.

Bu bəndlər öz növbəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki hazırkı uğurlu yerini müəyyənləşdirir.

## Böhranlara qarşı ümumi davranış kodeksi...

Qeyd edək ki, G20 və ya İyirmilik Qrup 19 ölkəni və Avropa İttifaqını (Aİ), eləcə də 2023-cü ildən Afrika İttifaqını birləşdirən hökumətlərarası forumdur. Ümumilikdə, G20 qlobal ticarətin 75 faizini və dünya əhalisinin üçdə ikisini əhatə edir. Qrupa ölkə olaraq Argentina, Avstraliya, Braziliya, Birləşmiş Krallıq, Almaniya, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ, Türkiyə, Fransa, Koreya Respublikası, Cənubi Afrika Respublikası və Yaponiya daxildir.

G20 1990-cı illərin sonlarında baş verən Asiya maliyyə böhranına və inkişaf etməkdə olan bazar iqtisadiyyatlarının qlobal iqtisadi müzakirələrdə iştirakının təmininə uyğun olaraq yaradılıb. 2008-ci ildən əvvəl qrup yüksək səviyyəli zirvə görüşləri keçirmirdi - onun əsas fəaliyyəti maliyyə nazirlərinin və mərkəzi bank rəhbərlərinin illik görüşləri idi. Bu gün G20 zirvə görüşləri beynəlxalq maliyyə və iqtisadi sistemlə bağlı məsələlər üzrə əməkdaşlıq və məsləhətləşmələr üçün qlobal forum kimi xarakterizə olunur.

Qrupun təsis konfransı 15-16 dekabr 1999-cu il tarixlərində Berlində keçirilib. Qrup, inkişaf etməkdə olan ölkələrlə əsas iqtisadi və maliyyə siyasəti məsələləri üzrə dialoq aparmaq üçün 7 aparıcı sənaye ölkəsinin - Birləşmiş Krallıq, İtaliya, Kanada, ABŞ, Almaniya, Fransa və Yaponiyanın maliyyə nazirlərinin təşəbbüsü ilə yaradılıb.

G20 Antiböhran Zirvəsi 14-15 noyabr 2008-ci il tarixlərində Vaşinqtonda qlobal maliyyə böhranı ilə bağlı məsələləri müzakirə etmək üçün keçirilib.

2009-cu il sammitində G20 özünü beynəlxalq iqtisadi və maliyyə əməkdaşlığının əsas məkanı elan etdi. Qrupun nüfuzu sonrakı onillikdə yüksəldi və o analitiklər tərəfindən əhəmiyyətli qlobal təsirə malik kimi güc kimi tanınır. Siyasi mütəxəssislər G20-ni İkinci Dünya müharibəsindən sonrakı iqtisadi siyasətin beynəlxalq koordinasiyasına yönəlmiş sonuncu təşəbbüs kimi xarakterizə edir. G20-nin əsas diqqət yetirdiyi məqam qlobal iqtisadiyyatın idarə olunmasıdır. Sammitin mövzuları ildən-ilə dəyişir. 2008-ci ildə Vaşinqtonda keçirilən debüt sammitindən 2011-ci il sammitinə qədər görüşlər ildə iki dəfə keçirilib.




## Azərbaycanın G20-də iştirakı - yeni nizamda yüksələn mövqe

Azərbaycanın G20 kimi qlobal iqtisadi və siyasi çəkisi yüksək olan platformada iştirakı ölkənin beynəlxalq münasibətlər sistemində qazandığı yeni mövqenin mühüm göstəricilərindən biridir. Bu, yalnız Bakının qlobal iqtisadi gündəmdə daha fəal görünməsi deyil, həm də Azərbaycanın artıq regional çərçivələri aşan orta güc aktoru kimi qəbul edilməsinin göstəricisidir.

Azərbaycan üçün G20 platforması iqtisadiyyatın diversifikasiyası, investisiyaların cəlbi, enerji və nəqliyyat layihələrinin təşviqi baxımından yeni imkanlar yaradır. Bakı burada Orta Dəhliz, Zəngəzur dəhlizi, enerji təhlükəsizliyi, yaşıl enerji və rəqəmsal transformasiya kimi təşəbbüslərini dünyanın aparıcı iqtisadiyyatlarının diqqətinə çıxara bilər. Bu isə Azərbaycanın geoiqtisadi əhəmiyyətini daha da artırır.

G20 üçün Azərbaycanın iştirakı da təsadüfi deyil. Azərbaycan Şərqlə Qərbi birləşdirən nəqliyyat marşrutlarının üzərində yerləşir, enerji təhlükəsizliyində mühüm rol oynayır və Cənubi Qafqazın yeni iqtisadi konfiqurasiyasının formalaşmasında əsas aktorlardan biridir. Bakı ilə əməkdaşlıq G20 ölkələrinə Avrasiya məkanında yeni logistika və enerji imkanlarından istifadə etmək üçün əlavə perspektivlər açır.

Daha geniş mənada, Azərbaycanın G20 gündəminə yaxınlaşması yeni dünya nizamında orta güclərin rolunun artmasının da nümunəsidir. Bakı böyük güclər arasında seçim etmək əvəzinə müxtəlif güc mərkəzləri ilə paralel və praqmatik əməkdaşlıq quraraq öz milli maraqlarını təmin edir. Bu baxımdan G20 Azərbaycanın diplomatik çəkisinin, geosiyasi manevr imkanlarının və qlobal qərarvermə proseslərinə təsir potensialının artdığını göstərən mühüm platformadır.

## Bakının fəal beynəlxalq rolu...

Ümumiyyətlə, Azərbaycan hər zaman təmsil olunduğu və ya dəvət edildiyi siyasi təşkilatlarda, iqtisadi birliklərdə fəallığı ilə seçilir. Son 20 illik yolda BMT TŞ-ya sədrlik, Qoşulmama Hərəkatına rəhbərlik kimi çətin və məsuliyyətli vəzifələrin öhdəsindən gələn rəsmi Bakı özünün ədalətə əsaslanan, beynəlxalq hüquqa söykənən mövqeyi ilə şöhrət qazanıb. Qlobal pandemiya dövründə davranışları, kolonializmdən əziyyət çəkən ölkələrə yardımları, qlobal iqlim dəyişikliyindən əziyyət çəkən dövlətlərin hüquqlarının müdafiəsi kimi mühüm fəaliyyət spektrləri Azərbaycanın beynəlxalq aləmdəki yerini müəyyənləşdirib. Bu, Bakının əhəmiyyətini, əməkdaşlıq üçün tam etimad edilən dövlət kimi qəbul olunduğunu göstərir. Müasir çağırışlar çoxtərəfliliyi təbliğ edir - xüsusilə, ticari-iqtisadi münasibətlərin diversifikasiya edilməsi ölkələrarası əlaqələrə rəngarənglik qatır. Azərbaycanın bütün qlobal mühit üçün alternativ enerji və nəqliyyat marşrutu kimi strateji əhəmiyyətinin artması faktaloji haldır. Paralel olaraq təhlükəsizlik amili yeni dövrün əsas komponentlərindən biri kimi çıxış edir. Azərbaycanın siyasi praqmatizmə əsaslanan mövqeyi və regional sülh təşəbbüsləri iştirakçı ölkələr tərəfindən bütün məkanlarda təqdir edilir. Bu isə Azərbaycanın regionda sülh və inkişafın əsas mənbəyi olmasını daha da qətiləşdirir.

**P.SADAYOĞLU**

# Xankəndi və Baia Mare qardaşlaşır

Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları ilə Rumıniyanın Maramureş və Baia Mare regionu arasında iqtisadi, investisiya, mədəni-humanitar, idman və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi barədə razılıq əldə olunub.

AZƏRTAC xəbər verir ki, Rumıniyada rəsmi səfərdə olan Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun rəhbərlik etdiyi nümayəndə heyəti Maramureş regionunun rəhbəri Qabriel-Valer Zatea ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq münasibətlərinin regional səviyyədə daha da inkişaf etdirilməsi, Qarabağ və Maramureş regionları arasında müxtəlif sahələri əhatə edən geniş əməkdaşlığın qurulması məsələləri müzakirə olunub. Elçin Yusubov Azərbaycanın, xüsusilə Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarının Avropa ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib. O, Qarabağda və Şərqi Zəngəzurda, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa, quruculuq və infrastruktur layihələri, xarici investorlar üçün yaradılan imkanlar barədə məlumat verib. Azərbaycan tərəfi Maramureş regionunun rəhbəri Qabriel-Valer Zateanı Qarabağa rəsmi səfərə dəvət edib. Dəvəti qəbul edən Qabriel-Valer Zatea regional səviyyədə əməkdaşlığın iki ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcəyini bildirib. O, Maramureşdə həyata keçirilən layihələrdə Azərbaycan sərmayəçilərinin iştirakına böyük maraq göstərildiyini vurğulayıb.

Görüşdə Qarabağ və Maramureşdə qarşılıqlı olaraq region günlərinin keçirilməsi, iki regionun iş adamlarının iştirakı ilə biznes-forumun təşkili, iqtisadi və investisiya imkanlarının birgə dəyər-



ləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Elçin Yusubov Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa quruculuq işlərini və regionda dayanıqlı sülh və sabitlik mühitinin formalaşdırılmasını tarixi nailiyyət kimi qiymətləndirib.

Bundan başqa, Azərbaycan nümayəndə heyəti Baia Mare şəhərinin meri İoan Doru Dencuşla da görüşüb.

Görüşdə Baia Mare və Xankəndi şəhərləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, birgə layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsi, investisiya və digər qarşılıqlı faydalı əməkdaşlıq istiqamətləri müzakirə olunub. Baia Marenin meri İoan Doru Dencuş Azərbaycanla, Qarabağla əlaqələrin inkişaf etdirilməsi üçün konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsini, Azərbaycan şirkətləri ilə tərəfdaşlıq əlaqələrinin qurulmasını və qarşılıqlı investisiya imkanlarının nəzərdən keçirilməsini təklif edib. O, həmçinin mədəni, humanitar və idman sahələrində əməkdaşlığa maraqlı olduqlarını bildirib.

Elçin Yusubov Xankəndinin coğrafi mövqeyi, təbiəti və zəngin irsi baxımından Baia Mare ilə oxşarlıqlarının olduğunu diqqətə çatdırıb. O, Xankəndinin Qarabağın mühüm siyasi, iqtisadi və mədəni mərkəzlərindən biri olduğunu, şəhərin zəngin tarixi barədə məlumat verib. Xüsusi nümayəndə Qarabağda həyata keçirilən genişmiqyaslı quruculuq layihələrindən region ölkələri, o cümlədən Avropa dövlətləri üçün uzunmüddətli strateji və iqtisadi əhəmiyyət daşıdığını vurğulayıb.

Görüş zamanı Rumıniya tərəfi Azərbaycana, xüsusilə Qarabağa rəsmi səfərə dəvət olunub. Tərəflər Baia Mare və Xankəndi şəhərləri arasında qardaşlaşma haqqında sazişin imzalanması barədə razılığa gəliblər.

Keçirilən görüşlər Qarabağ regionu ilə Rumıniyanın Maramureş regionu, eləcə də Xankəndi və Baia Mare şəhərləri arasında əlaqələrin yeni mərhələyə yüksəldilməsi, iqtisadi və investisiya əməkdaşlığının genişləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir.



# 33 il sonra ədalətin bərpası

## ABŞ Dövlət Departamenti "Azadlığa Dəstək Aktı"nda Azərbaycanla bağlı 907-ci düzəlişin ləğvinin uzadılması barədə Konqresə bildiriş göndərib

Bu günlərdə Ağ Evdən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Azərbaycana birbaşa yardımına qadağa qoyan bədnam 907-ci düzəlişlə bağlı növbəti xəbər gəlib. Belə ki, ABŞ Dövlət Departamenti "Azadlığa Dəstək Aktı"nda Azərbaycanla bağlı 907-ci düzəlişin ləğvinin uzadılması barədə Konqresə bildiriş göndərib. 10 avqust tarixli bildiriş ABŞ Konqresinin rəsmi protokolunda yer alıb.

Sənəd ABŞ Dövlət Departamenti tərəfindən Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinə təqdim edilib.

**Azərbaycan-ABŞ münasibətlərində "qara səhifə"**

Müstəqil Azərbaycan milli maraqlar üzərində qurulan xarici siyasət kursunda hər zaman dünyanın supergüc dövlətlərindən olan Amerika Birləşmiş Ştatlarına münasibətdə ardıcıl yanaşma sərgiləyib. Yəni respublikamız davamlı olaraq ABŞ-la xoş məramа və qarşılıqlı maraqlara əsaslanan əlaqələr qurmağa və bu əlaqələri daha da dərinləşdirməyə çalışıb. Qeyd edək ki, müstəqilliyimizin ilk illərindən ABŞ şirkətlərinin ölkəmizdə fəaliyyətinə "yaşıl işıq" yandırılıb. Eyni zamanda, Azərbaycan dövləti Vaşinqtonun respublikamızın transmilli şirkətlərlə birgə reallaşdırdığı enerji layihələrinə verdiyi dəstəyi birmənalı şəkildə yüksək dəyərləndirib.

Bununla belə, Azərbaycan ABŞ-la bir çox sahələrdə qurulan əlaqələrə davamlı sadiqlik nümayiş etdirsə də, qarşı tərəfdən bu cür ardıcıl yanaşma müşahidə edilməyib. Belə ki, Ağ Evdə ayrı-ayrı administrasiyalar dönəmində ölkəmizə qarşı qərəzli addımlar atılıb, erməni lobbisinin təsiri altında Konqresdə ikitərəfli münasibətlərin ruhuna uyğun gəlməyən qətnamələr qəbul olunub. 1992-ci ilin oktyabrında ABŞ-ın qanunverici orqanında "Azadlığa Dəstək Aktı"na bədnam "907-ci düzəliş"in qəbul edilməsi, eləcə də keçmiş Bayden-Blinken administrasıyasının davamlı olaraq anti-Azərbaycan mövqeyindən çıxış etməsi bunun əyani təsdiqidir.

ABŞ-ın "Azadlığa Dəstək Aktı" qanununa edilmiş bədnam 907-ci düzəliş ikitərəfli münasibətlərdəki "qara səhifələrdən" biridir. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş "Azadlığa Dəstək aktı" qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan "Azadlığa Dəstək Aktına 907-ci düzəliş" adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb.

907-ci düzəliş niyə qəbul edilib və onun mahiyyəti nədən ibarətdir? Bu sualın ən dolğun cavabını Prezident İlham Əliyev həm 2025-ci il avqustun 8-də ABŞ-da səfərinin yekunları ilə bağlı Azərbaycan media nümayəndələrinə verdiyi müsahibəsində, həm də bir qədər bundan əvvəl baş tutan IV Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən verib. Dövlətimizin başçısı IV Şuşa Qlobal Media Forumunda sənədin bədnam mahiyyətinə diqqət çəkərək bildirib ki, 907-ci düzəliş ABŞ Konqresi tərəfindən ədalətsiz bir addım idi, bu, ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdü. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbərləri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşərək qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş o illərdə Azərbaycanın çox ehtiyac duyduğu birbaşa Amerika yardımından məhrum etdi. Humanitar fəlakət yaşayan Azərbaycan 907-ci düzəlişə görə keçmiş ittifaq respublikaları arasında birbaşa ABŞ yardımından məhrum qalan yeganə postsovet dövləti idi. Sonra 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı yaranmışdı. Məsuliyyətli dövlət olan Azərbaycan o dövrdə ABŞ üçün çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdi. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə ədalətsiz 907-ci düzəlişin dayandırılmasına da lüzum görmədi. Bu, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi.

**Ağ Evdə Tramp tərəfindən atılan və böyük rəmzi məna daşıyan addım**

Ötən il avqustun 8-də Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində Prezident Donald Tramp Azərbaycana münasibətdə böyük məna yükünə malik olan mühüm addım atdı. Belə ki, o, 907-ci düzəlişin dayandırılması ənənəsini bərpa etməklə Bayden-Blinken administarsiyasının səhvlərinə nöqtə qoymuş oldu. Azərbaycan Prezidenti İlham Əliyev bunu 33 il sonra bərpa olunan ədalət kimi səciyyələndirib.




Aradan illər ötəndən sonra Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq güclü dövlətə çevrilib. Hazırda respublikamız özünün iqtisadi potensialına və maliyyə imkanlarına əsaslanmaqla tam müstəqil siyasət həyata keçirir. Bu gün inkişafının yüksək səviyyəsinə çatan Azərbaycan öz problemlərini özü həll edir və dünyada orta güc dövləti kimi qəbul olunur. Belə bir vəziyyətdə 907-ci düzəlişin dondurulmasına  və "Azadlığa dəstək aktı" çərçivəsində respublikamıza ABŞ-dan yardım ünvanlanmasına bir o qədər də böyük ehtiyac yoxdur. Prezident İlham Əliyev ötən il avqustun 8-də Vaşinqtona səfəri çərçivəsində Azərbaycan media nümayəndələrinə müsahibəsində D.Tramp tərəfindən 907-ci düzəlişin dayandırılmasının rəmzi məna daşıdığını bildirib. "Əlbəttə ki, "Azadlığa Dəstək Aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi", - deyə dövlətimizin başçısı vurğulayıb.

**Vaşinqton görüşündən 1 il sonra**

ABŞ Prezidenti D.Tramp Azərbaycana və "Böyük Lider" kimi səciyyələndirdiyi Prezident İlham Əliyevə xoş münasibətinin ifadəsi olaraq avqust görüşündən təxminən bir il ötəndən sonra bədnam 907-ci düzəlişin dayandırılmasını yenidən gündəmə gətirərək bununla bağlı müvafiq memorandum imzalayıb. Eyni zamanda, daha bir jest edərək həmin sənədin surətini  şəxsi qeydlər aparmaqla və xoş sözlər yazmaqla Prezident İlham Əliyevə ünvanlayıb.

Öz növbəsində Prezident İlham Əliyev Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memoranduma görə Donald Trampa təşəkkür edib. Bununla bağlı dövlətimizin başçısının sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirilib. Paylaşımda vurğulanıb: "Möhtərəm Prezident Donald Tramp, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu  şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

Qeyd edək ki, bu jest son bir ildə prezidentlər arasında qarşılıqlı hörmət və ikitərəfli əlaqələrin dərinləşməsini əks etdirən yeganə hal deyil. Ötən dövrdə ikitərəfli əlaqələrdə izlənilən proseslər onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin "itirilmiş illər" adlandırdığı Bayden-Blinken administrasiyası dönəmindəki soyuq münasibətlər artıq tarixdə qalıb. İkitərəfli dialoqda qarşılıqlı dərin rəğbəti əks etdirən və getdikcə daha dolğun məzmunla zənginləşən yeni bir səhifə açılıb. Prezidentlərin davamlı hal alan siyasi təmaslarında, o cümlədən də əlamətdar tarixlərdə bir-birlərinə ünvanladıqları məktublarda ifadə olunan fikirlər onu deməyə əsas verir ki, münasibətləri irəli aparmaqda hər iki tərəf maraqlıdır. Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Donald Trampa ünvanladığı təbrik məktubunda bildirdiyi kimi, biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət veririk. Beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizə, enerji təhlükəsizliyi və bir sıra digər mühüm sahələr üzrə fəal və səmərəli əməkdaşlığımız sıx tərəfdaşlığımızın səciyyəvi cəhətlərindəndir.

Oxşar fikirləri həmçinin D.Tramp da ifadə edib. "Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır", - deyə onun Azərbaycan Prezidentinə ünvanladığı məktubda vurğulanıb.

Liderlərin sosial şəbəkə hesablarında bir-birinə qarşılıqlı hörmət və rəğbəti ifadə edən paylaşımları ikitərəfli münasibətlərə güclü impuls verir. Donald Trampın sosial şəbəkə hesabında Azərbaycan Prezidentinin Şuşa Qlobal Media Forumunda etdiyi dərin məzmunlu çıxışlarından sitatlar paylaşması gözəl bir ənənəyə çevrilib. ABŞ dövlət başçısının ilk belə paylaşımı Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışı ilə bağlı olub. D.Tramp öz ənənəsini təxminən bir il ötəndən sonra yenidən təkrarlayıb. Belə ki, bu dəfə o, Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşıb. Buna cavab olaraq isə dövlətimizin başçısı sosial media hesablarında etdiyi paylaşımda D.Trampa təşəkkürünü bildirib. Paylaşımda deyilir: "Cənab Prezident,

Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart" nəşrinə istinadən Sizi "Sülh İnsanı" kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim.

Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib.

Siz həqiqətən də Sülh İnsanısınız".

Bütövlükdə, son bir ildə Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq ruhunda inkişaf edib. Məlum olduğu kimi, Prezident İlham Əliyevin ötən ilin avqust ayında Vaşinqtona baş tutan uğurlu səfəri çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Bir neçə ay ərzində hər iki ölkənin heyətlərinin səmərəli fəaliyyətlərinin nəticəsi olaraq cari il fevralın 10-da Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens  Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nı imzalayıblar. Xartiya mətnində hər iki tərəf qarşılıqlı suverenlik, müstəqillik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini açıq şəkildə təsdiqləyiblər.  2025-ci il avqustun 8-dən əvvəl Azərbaycan-ABŞ münasibətlərinin əsasında yalnız enerji, təhlükəsizlik və diplomatiya dururdu. Yeni Xartiyada isə süni intellekt, rəqəmsal infrastruktur və texnoloji əməkdaşlıq ayrıca prioritetlər kimi müəyyənləşdirilib. Bağlantılar, xüsusilə TRIPP üzrə əməkdaşlıq da qarşılıqlı münasibətlərdə yeni bir istiqamətdir. Ümumiyyətlə, Bakıda imzalanan Xartiya iki ölkə arasında münasibətləri keyfiyyətcə yeni strateji mərhələyə qaldıran və uzunmüddətli əməkdaşlığı rəsmiləşdirən tarixi sənəd və yol xəritəsidir.

**907-ci düzəlişin tam ləğv edilməməsi ikitərəfli strateji tərəfdaşlığın ruhuna ziddir**

Bədnam 907-ci düzəlişin bir il müddətində dayandırılması özlüyündə müsbət hal olsa da, onun tam ləğv edilməməsi ikitərəfli strateji tərəfdaşlığın ruhuna ziddir. Azərbaycan zaman-zaman 907-ci düzəlişin tamam ləğvi məsələsini gündəmə gətirib. Xatırlatmaq yerinə düşər ki, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 907-ci düzəliş əleyhinə fəaliyyət güclənib. Heydər Əliyev 27 iyul-7 avqust 1997-ci ildə ABŞ-a rəsmi səfəri zamanı ABŞ-Azərbaycan münasibətlərinə böyük zərbə vuran 907-ci əlavənin ləğvinin zəruriliyini Prezident Klintona və Konqres üzvlərinin diqqətinə çatdırıb. 1 avqust 1997-ci ildə Heydər Əliyevlə söhbət zamanı Bill Klinton ABŞ Konqresinin 907-ci əlavəyə münasibətini dəyişəcəyini bildirib. O, əvvəlcə Azərbaycana yardımların təmin olunacağını, daha sonra həmin əlavənin ləğv ediləcəyini deyib.

Ulu Öndər Heydər Əliyevin Nümayəndələr Palatasında keçirdiyi görüşlər zamanı da ABŞ qanunvericiləri 907-ci düzəlişin əleyhinə olduqlarını bildiriblər. ABŞ-dakı erməni lobbisinin müqaviməti nəticəsində 907-ci düzəlişin tam ləğvinə nail olunmasa da, 1997-2000-ci illərdə ABŞ Azərbaycana məhdud da olsa, müxtəlif yardımlar edib. 2000-ci ilin fevralında Heydər Əliyevin ABŞ-a səfəri zamanı müdafiə naziri Uilyam Kohenlə 907-ci düzəlişin daha çox qarşısını aldığı hərbi əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

Sonrakı mərhələdə Prezident İlham Əliyev 907-ci düzəlişin tamam ləğv edilməsi ilə bağlı Azərbaycanın birmənalı mövqeyini dəfələrlə ən yüksək auditoriyalar qarşısında beynəlxalq birliyin diqqətinə çatdırıb. Məsələn, dövlətimizin başçısı BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı vurğulayıb ki, ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

**ABŞ-ın özündə də 907-ci düzəlişin tamam ləğv edilməsinə çağırışlar güclənir**

Yaxşı haldır ki, artıq ABŞ-ın özündə də bədnam 907-ci düzəlişin tamam ləğv edilməsinə çağırışlar edilir və bu hərəkat getdikcə güclənir. Diqqətçəkən mühüm məqam həm də ondan ibarətdir ki, Konqresdə də bu mövqedə olanların sayı artmaqdadır. Xatırladaq ki, ötən ilin dekabr ayında ABŞ Nümayəndələr Palatasının üzvü Anna Paulina Luna 907-ci düzəlişi tam ləğv etməyə yönəlmiş qanun layihəsini təqdim edib və sənəd Konqresin saytında yerləşdirilib. Qanun layihəsində deyilir ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən bəri Amerika Birləşmiş Ştatlarının və onun müttəfiqlərinin sadiq tərəfdaşı olaraq qalır, Azərbaycan müharibə dövründə də, sülh dövründə də mühüm əməkdaşlığı təmin edib. Qanun layihəsinə əsasən, Azadlığa Dəstək Aktının 907-ci maddəsi ləğv edilir və qanundan həmin maddə ilə əlaqəli bənd çıxarılır.

Sözügedən qanun layihəsinin həmmüəllifi qismində Nümayəndələr Palatasının digər üzvü Abraham Hamadeyi çıxış edir. O, cari ilin iyun ayında Azərbaycana səfər edib və  ölkə Prezidenti İlham Əliyevin, eləcə də xarici işlər naziri Ceyhun Bayramovun qəbulunda olub.

Hazırda  907-ci düzəlişin mövcudluğuna heç bir əsas yoxdur. Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda bildirdiyi kimi, bu gün 907-ci düzəliş tamamilə köhnəlib. Artıq şərait də dəyişib, Cənubi Qafqazda yeni reallıqlar hökm sürür. "Əfsuslar olsun ki, Prezident Trampın qəti mövqeyinə baxmayaraq, hələ ki qüvvədə qalır. ABŞ Konqresi bunu nə qədər tez ləğv edərsə, bu həm hamı, həm də Azərbaycan üçün faydalı olacaq, çünki belə olan halda ayrı-seçkilik aradan qalxacaq və Konqres öz məsuliyyətini və bacarığını nümayiş etdirəcək. Bu da o demək olacaq ki, onlar öz səhvlərini etiraf edirlər və cari geosiyasi vəziyyətə uyğun addım atırlar. Beləliklə, biz ümid edirik ki, bu baş verəcək", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Dövlət əmlakını özəl əmlakla dəyişdirmək mümkün olacaq



Prezident İlham Əliyev Milli Məclisin iyulun 14-də qəbul etdiyi Torpaq Məcəlləsində, Mülki Məcəllədə və “Qiymətləndirmə fəaliyyəti haqqında” qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.

Bununla Azərbaycanda dövlət mülkiyyətində olan əmlakın (o cümlədən dövlət torpaqlarının) qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla, o cümlədən torpaq sahələri ilə dəyişdirilməsinin hüquqi əsası yaradılıb.

Bununla belə, özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı (dövlət torpaqları), dövlətin müstəsna mülkiyyətində olan və ya dövlət ehtiyacları üçün nəzərdə tutulan torpaq sahələri dəyişdirmənin predmeti ola bilməz.

Dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi əmlakların (torpaq sahələrinin) alqı-satqısı zamanı təşəkkül tapan bazar qiyməti nəzərə alınmaqla “Qiymətləndirmə fəaliyyəti haqqında” qanuna uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçiriləcək. Həmin qanuna təklif edilən dəyişikliklə dövlət orqanları (qurumları) və bələdiyyələr də qiymətləndirmə fəaliyyəti üzrə sifarişçi statusu əldə edirlər.

Dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahəsinin xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə dəyişdirilməsinin qaydası təsdiq ediləcək.

Dəyişikliklər əmlakdan və torpaq sahələrindən daha səmərəli istifadəyə, torpaq bazarında dövriyyənin aktivləşməsinə, iqtisadi fəallığın yüksəlməsinə, dövlət və vətəndaşlar arasında qarşılıqlı razılıq əsasında daha çevik əmlak mübadiləsi imkanlarının yaranmasına, mülki dövriyyədə dövlətin digər mülki hüquq subyektləri ilə bərabər şərtlərlə iştirakının təmin edilməsinə xidmət edəcək.

# ABŞ ölkəmizdə maliyyə şəffaflığını qiymətləndirib

## Dövlət Departamenti Azərbaycanı fiskal şəffaflıq üzrə tələblərə cavab verən dövlətlər sırasına daxil edib

ABŞ Dövlət Departamenti bu günlərdə açıqladığı “2026-cı il Fiskal Şəffaflıq Hesabatı”nda dünya ölkələrinin maliyyə şəffaflığı tələblərinin illik icmalını aparıb və illik qiymətləndirmə meyarlarını yeniləyib. Departament 139 hökumətin (və Fələstin Muxtariyyətinin) maliyyə şəffaflığını qiymətləndirib, hər bir hökumətin minimum tələblərə cavab verib-vermədiyini müəyyən edib. Eləcə də, minimum maliyyə şəffaflığı tələblərinə cavab verməyən hökumətlərin 1 yanvar - 31 dekabr 2025-ci il tarixli icmal dövründə tələblərə cavab verməkdə əhəmiyyətli irəliləyiş əldə edib-etmədiyini qiymətləndirib. Hesabatda bildirilib ki, 2026-cı il icmalını aparարkən departament ABŞ səfirliklərindən və konsulluqlarından, digər ABŞ hökumət qurumlarından, beynəlxalq təşkilatlardan və vətəndaş cəmiyyəti təşkilatlarından alınan məlumatları nəzərə alıb. Büdcə proseslərində faydalı ictimai iştirakı təmin etmək üçün hökumətlərin əsas minimum maliyyə şəffaflığı tələblərinə cavab verib-vermədiyini qiymətləndirərkən departament hökumətlərin spesifik hallarının fərqli olduğunu qəbul edib. Buna baxmayaraq, hesabatda hökumətlərin büdcə proseslərində mənalı ictimai iştirakı təmin etmək üçün əsas minimum maliyyə şəffaflığı tələblərinə cavab verib-vermədiyi qiymətləndirilir.

### Fiskal yığımlar xərcləri üstələyir

ABŞ Dövlət Departamenti hesab edir ki, Azərbaycanda maliyyə siyasəti sahəsində əhəmiyyətli islahatlar həyata keçirilməkdədir və fiskal sektor şəffaflıq tələblərinə cavab verir. Yürüdülən fiskal siyasət dövlətin büdcə, vergi və xərclər vasitəsilə iqtisadiyyata təsiretmə mexanizmi olmaqla proseslərin açıq, ictimaiyyətə əlçatan və hesabatlı olmasını təmin edir.

Azərbaycan hökuməti son illərdə yeni islahatlar çərçivəsində fiskal alətləri optimallaşdırıb, genişləndirici və stimullaşdırıcı siyasət yürüdülməkdədir. Dövlət xərclərinin artırılması, vergi güzəştləri və səmərəverici fiskal alətlərin tətbiqi biznes və qeyri-dövlət bölmələrindən əldə edilən gəlirlərin artmasına səbəb olmaqdadır. Bunun nəticəsidir ki, ölkəmiz hazırda fiskal dayanıqlılıq üzrə ən yaxşı mövqeyə malik ölkələrdəndir. 2026-cı ilin ötən 7 ayında həm dövlət, həm icmal büdcədə profisit yaranıb. Dövlət büdcəsinin profisiti 2,4 milyard manat, icmal büdcənin profisti 2 milyard manatdan çox olmaqla ÜDM-in 5 faizdən çoxunu təşkil edir. Yəni ölkəmizdə ÜDM-in də fiskal profisiti dayanıqlı xarakter daşıyır. Ancaq bir çox ölkələrdə büdcədə fiskal kəsirin artması müşahidə edilir. Avropa ölkələrində hazırda fiskal kəsirin ÜDM-ə nisbəti 4 faizi, inkişaf etməkdə olan ölkələrdə isə 5 faizdən çoxdur. Azərbaycanda fiskal yığımların xərcləri üstələməsi fiskal siyasətdə daraldıcı effekt yaratmaqla, həm də manatın sabitliyi və inflyasiyanın cilovlanmasına xidmət edir.



Fiskal dayanıqlılığı dövlət maliyyəsində şəffaflığın qorunmasında da etimadı gücləndirir, korrupsiyanı azaldır və sərmayə cəlb etməyə kömək edir, iş adamlarının dövlətə etibarını yüksəldir. Xarici və yerli investorlar üçün riskləri azaldır. Əldə edilmiş nəticələr göstərir ki, “kölgə iqtisadiyyatının” daraldılması və biznesin leqallaşdırılması və iqtisadi qurumlar və sahibkarlıq arasında sağlam münasibətlərin qurulduğu şəraitdə biznes leqal fəaliyyət göstərməyə, rəqabət şəraitində işləməyə meyillidir. Rəqabətin təmin edilməsi, qanunsuz sahibkarlığın qarşısının alınması, leqal fəaliyyətin vergi stimullaşdırılması mexanizmlərinin tətbiqi şəraitində biznes şəffaflaşma çağırışlarına müsbət reaksiya verir. Bütün bunlar isə sahibkarların gəlirlərinin artmasına və fiskal imkanların böyüməsinə imkan verir. Eyni zamanda, fiskal riskləri minimallaşdırmaqla, maliyyə şəffaflığını artırır.

### “Açıq Büdcə İndeksi”ndə müsbət irəliləyiş

Qiymətləndirmədə fiskal siyasət tədbirləri ilə yanaşı, büdcə açıqlığı və ictimai iştirakçılıq amili də mühüm rol oynayır. Azərbaycan son illərdə bu istiqamətdə kifayət qədər müsbət nəticələr əldə edib. “Açıq Büdcə İndeksi” beynəlxalq hesabatında ölkəmiz əvvəlki hesabatlarla müqayisədə mövqeyini yaxşılaşdırıb. İki il əvvəlki qiymətləndirmədə 100 mümkün baldan 67-ni toplayıb. Bununla da Azərbaycanın reytinqi dünya üzrə orta göstəricidən (45 bal) 22 bal yuxarı olmaqla ümumi reytinqdə ən çox irəliləyən ölkələr qrupunda yer alıb. Məlumat üçün qeyd edək ki, 61 və ya daha yuxarı bal toplayan ölkələr adekvat büdcə açıqlığına malik ölkələr qrupuna aid edilir. Beləliklə, Azərbaycan “Açıq Büdcə İndeksi” hesabatında qiymətləndirmədə iştirak edən 125 ölkə arasında 21 pillə irəliləyərək 23-cü yerə yüksəlib və müstəqillik tarixi ərzində büdcə şəffaflığı göstəricisi üzrə ən yüksək nəticə əldə edib. Ümumilikdə, Azərbaycan müvafiq reytinqin parametrləri üzrə dünya üzrə bir sıra orta göstəriciləri də xeyli qabaqlayıb.

Mövcud reytinq hesabatının tərtib olunmasında Dünya Bankının “Dövlət Xərcləri və Maliyyə Hesabatlılığı”, Beynəlxalq Valyuta Fondunun “Fiskal Şəffaflığın Ən Yaxşı Təcrübələr Məcəlləsi”, “Lima Bəyannaməsi”, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının “Fiskal Şəffaflıq üzrə Ən Yaxşı Təcrübələr” və “Fiskal Şəffaflıq üzrə Qlobal Təşəbbüs”ün prinsipləri kimi sənədlərə istinad olunur. Ümumilikdə, Beynəlxalq Büdcə Tərəfdaşlığı tərəfindən ekspert sorğusu əsasında iki ildən bir tərtib olunan büdcə reytinqi 3 əsas fundamental maliyyə qiymətləndirməsinə əsaslanmaqla qiymətləndirilir:

1. Büdcə məlumatlarının ictimaiyyətə əlçatanlığı (Open Budget Index)
2. Büdcə prosesində ictimai iştirakçılıq səviyyəsi (Public Participation);
3. Qanunverici hakimiyyət orqanı və ali audit orqanının rolu və fəaliyyəti (Budget Oversight).

Qeyd edək ki, Açıq Büdcə İndeksi sorğusu üzrə ölkələrin büdcə mexanizmlərinin qiymətləndirilməsinə 2006-cı ildən başlanılıb və Azərbaycan həmin ildən etibarən bu sorğuda iştirak edir. Həmin ildən başlayaraq reytinqdə öz mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Əgər 2006-cı ildə ilk hesabat açıqlanan zaman ölkəmizin topladığı bal indeksi 30-a bərabər idisə, hazırda 67-dir. Bu isə o deməkdir ki, ölkəmiz son 20 ildə mövqeyini 2 dəfədən də çox olmaqla, 37 bal yaxşılaşdırıb.

### Nəticəəsaslı büdcə mexanizminin tətbiqi hesabatlılığı yüksəldir

Yeri gəlmişkən, Maliyyə Nazirliyi tərəfindən bu günlərdə nəticəəsaslı büdcə mexanizminin tətbiqi islahatlarına cəlb olunan sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının 2025-ci il üzrə icrasına dair monitorinq nəticələri açıqlanıb. Monitorinq büdcə planı üzrə icra məlumatlarının müəyyən olunmuş qaydada toplanması yolu ilə müvafiq sektor üzrə layihələrin və əldə olunmuş nəticələrin müəyyən edilmiş müddətlərdə nəzərdən keçirilib. Monitorinqin nəticələri hazırlanarkən səmərəliliyin artırılması və şəffaflığın təmin edilməsi, həmçinin büdcə xərclərinin əldə edilmiş nəticələrə daha dəqiq uyğunlaşdırılması istiqamətində görüləcək işləri müəyyən etməyə kömək edir.

“Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” sektorlarını əhatə edən monitorinq çərçivəsində qeyd olunan sektorlar üzrə strateji hədəflərin və nəticə göstəricilərinin icra dinamikası, eləcə də ayrılmış büdcə vəsaitləri və nəticə göstəriciləri arasındakı korrelyasiya təhlil edilib, habelə aparılmış təhlillərin nəticələrindən irəli gələn metodoloji tövsiyələr, reytinq və digər məsələlər sənəddə əks etdirilib. Nəticələr ölkəmizdə büdcə xərclərinin hesabatlılığı, dürüstlüyü və şəffaflığı, eyni zamanda fiskal islahatların mühüm göstəricisi kimi dəyərləndirilə bilər. Belə ki, “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”na əsasən, Azərbaycanda fiskal şəffaflığın gücləndirilməsi nəzərdə tutulub.

**E.CƏFƏRLİ**

# Tramp Məkkə sazişini dəstəkləyib



ABŞ Prezidenti Donald Tramp Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistan arasında kollektiv təhlükəsizlik sazişinin bağlanmasını müsbət qiymətləndirib.

Tramp bu barədə “Truth Social” şəbəkəsində yazıb.

“Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistanın bu yaxınlarda Məkkədə müdafiə sazişi bağlamasından çox məmnunam. Bu, Yaxın Şərqin birləşdiyini və ölkələrin nəhayət özlərini daha yaxşı müdafiə edə biləcəklərini göstərir”, - Amerika lideri qeyd edib.

ABŞ rəhbəri həmçinin sazişi çox vacib və cəsarətli addım adlandırıb.

# Aİ Rusiyaya qarşı ən böyük sanksiya paketini hazırlayır

Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Kaya Kallas Rusiyaya qarşı 22-ci sanksiyanı elan edib. Onun sözlərinə görə, bu, 2022-ci ildən bəri ən böyük sanksiya paketi olacaq.

“Die Welt”in məlumatına görə, yeni paketin qəbul edilməsi Aİ sanksiyalarına məruz qalan Rusiyanın fiziki və hüquqi şəxslərinin sayını təxminən üçdə bir qədər artıracaq.

K.Kallas bildirib ki, Brüssel bu payız Rusiyaya qarşı sanksiya təzyiqini artırmaq niyyətindədir.



Xatırladaq ki, daha əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyaya qarşı yeni sanksiyaların hazırlandığını açıqlayıb. O, məhdudiyyətlərin Rusiyanın hərbi-sənaye və maliyyə sektorlarına, eləcə də vasitəçilərə təsir edəcəyini bildirib.

# Vannacci fenomeni: İtaliyada nə baş verir və Avropanın sağa dönüşü nə deməkdir?

Avropanın siyasi xəritəsində son illər maraqlı dəyişiklik gedir. Bir vaxtlar kənarda qalan, seçicilərin kiçik bir hissəsinin dəstəklədiyi sağ və millətçi siyasətçilər indi getdikcə daha çox səs toplayır, parlamentlərə daxil olur, hökumətlərə təsir göstərir və bəzi ölkələrdə hakimiyyətə gəlirlər. İtaliyada Roberto Vannaccinin sürətlə siyasətin ön sıralarına çıxması da bu prosesin diqqətçəkən nümunələrindən biridir.

Bəs Vannacci kimdir? Nə istəyir? İnsanlar niyə onun arxasınca gedirlər? Onun siyasəti İtaliyanın hazırkı hökuməti üçün nə qədər ciddi problem yarada bilər? Ən başlıcası isə, Vannaccinin yüksəlişi İtaliyanın daxili məsələsidir, yoxsa bütövlükdə Avropada daha böyük siyasi dəyişiklik baş verir?

Bu suallara cavab tapmaq üçün əvvəlcə Vannaccinin öz hekayəsinə baxmaq lazımdır.

## Generaldan siyasətçiyə

Roberto Vannacci siyasətə adi partiya fəalı kimi gəlməyib. O, uzun illər İtaliya ordusunda xidmət edib, general rütbəsinə qədər yüksəlib. Onun adı geniş ictimaiyyətə əsasən 2023-cü ildə yazdığı “Il mondo al contrario” - “Baş-ayaq dünya” adlı kitabdan sonra məlum olub.

Kitabda Vannacci miqrasiya, milli kimlik, homoseksuallıq, multikulturalizm və Avropadakı sosial dəyişikliklərlə bağlı sərt fikirlər səsləndirib. Kitab böyük mübahisə yaradıb. Onu müdafiə edənlər Vannaccinin başqalarının deməyə çəkindiyi fikirləri açıq dilə gətirdiyini bildiriblər. Tənqid edənlər isə onun bəzi fikirlərini ayrı-seçkilik yaradan və cəmiyyəti parçalaya biləcək yanaşma kimi qiymətləndiriblər. Amma müzakirələrdə bir məsələ aydın oldu: Vannacci artıq bütün İtaliyanın tanıdığı şəxsə çevrilib. Maraqlıdır ki, onun ətrafında yaranan qalmaqal siyasi karyerasını əngəlləmədi, əksinə, Vannaccinin daha yaxşı tanınmasına kömək etdi. Kitabını oxuyan, çıxışlarını izləyən və fikirlərini bölüşən insanlar getdikcə onun ətrafında toplaşmağa başladılar.




Burada müasir siyasətin mühüm bir xüsusiyyəti də ortaya çıxır: insanlar bəzən siyasətçiyə onun dediklərinə görə yox, məhz başqalarının ona qarşı çıxmasına görə maraq göstərirlər. Vannacci ətrafında yaranan böyük mübahisə onun tərəfdarlarında belə bir düşüncə yaratdı ki, “deməli, bu adam başqalarının dilə gətirməyə cəsarət etmədiyi sözləri deyir”. Bu isə onun siyasi yolunun başlanğıcına çevrildi.

## Vannacci necə deputat oldu?

2024-cü ildə Vannacci Avropa Parlamentinə üzv seçildi. Namizədliyini Matteo Salvininin rəhbərlik etdiyi Liqa partiyasının siyahısından irəli sürmüşdü. Bu, onun üçün böyük siyasi uğur idi. Lakin çox keçmədən başa düşdü ki, ayrıca öz siyasi platformasını qurmaq imkanı da var. Odur ki, 2026-cı ilin fevralında Liqanı tərk edib Futuro Nazionale (Milli Gələcək) adlı yeni siyasi partiya yaratdı. İlk baxışda təzə partiyanın uğur qazanması çətin görünə bilərdi - İtaliyada çoxlu siyasi partiya var və seçicilərin diqqətini çəkmək asan məsələ deyil. Buna baxmayaraq, Vannaccinin partiyası qısa müddətdə ciddi nəticə göstərməyə başladı. İyul ayında keçirilən YouTrend sorğusunda Futuro Nazionale 7,6 faiz dəstək aldı. Avqustun əvvəlində keçirilən başqa bir sorğuda isə partiyanın göstəricisi 7,2 faiz idi. Bu rəqəmlər nəyə dəlalət edir? Sadə desək, bir neçə ay əvvəl yaranmış partiya artıq İtaliyanın böyük siyasi qüvvələri ilə eyni sırada görünməyə başlayıb. Bu, ölkə siyasətində ciddi hadisədir.

## Vannaccinin arxasında kim dayanır?

Burada əsas məsələ Vannaccinin öz şəxsiyyəti qədər onun arxasınca gedən insanların nə istədiyidir. Onun seçicilərinin hamısını eyni qrup kimi qəbul etmək düzgün olmaz. Kimsə miqrasiyanın çoxalmasından narahatdır, başqası Avropa İttifaqının qərarlarından narazıdır, üçüncü bir seçici ölkəsində ənənəvi dəyərlərin zəiflədiyini düşünür, bir başqası da sadəcə mövcud siyasi partiyalardan bezib. Yəni Vannacci tərəfdarlarını birləşdirən tək bir məsələ yoxdur, onları bir yerə yığan daha geniş bir narazılıq çevrəsi var. Bu insanlar düşünürlər ki, İtaliyanın siyasi elitası onların gündəlik həyatda gördüyü problemlərdən kifayət qədər açıq danışmır. Miqrasiya bunun ən bariz nümunəsidir. Avropaya son illər çox sayda miqrant gəlib. Bu proses iqtisadi və humanitar tərəfləri ilə yanaşı, təhlükəsizlik, sərhəd nəzarəti, sosial xidmətlər, iş yerləri, yaşayış və milli kimliklə bağlı mübahisələri də artırıb. Ənənəvi siyasi partiyalar bu məsələlərə müxtəlif cür yanaşırlar. Vannacci isə daha sərt mövqe tutur. Onun mesajı sadədir: İtaliya öz sərhədlərinə, milli kimliyinə və daxili qaydalarına daha ciddi nəzarət etməlidir. Məhz bu sadə və sərt mesaj müəyyən seçici qruplarına güclü təsir göstərir.

## Bəs Giorgia Meloni üçün problem nədir?

Burada məsələ daha maraqlı şəkil alır. İtaliyanın Baş naziri də sağ siyasi düşərgəyə aiddir. Onun rəhbərlik etdiyi İtaliya Qardaşları partiyası son illər böyük uğur qazanıb və hazırda ölkənin ən güclü siyasi qüvvəsidir. Meloninin siyasətində də milli maraqlar, sərhəd təhlükəsizliyi və miqrasiyanın nəzarətdə saxlanması kimi məsələlər mühüm yer tutur. Bu halda sual yaranır: əgər Meloni artıq sağ siyasəti təmsil edirsə, Vannacci nə istəyir? Cavab sadədir: Vannacci Melonidən daha sağda dayanmağa çalışır. Onun siyasi hesablamasına görə, Meloni hakimiyyətə gələndən sonra bir sıra məsələdə daha praqmatik davranmağa məcbur olub, çünki hökumət qurmaq başqa, hökuməti idarə etmək isə tamam başqa məsələdir. Müxalifətdə olan siyasətçi sərt danışa bilər, hakimiyyətdə olan siyasətçi isə Avropa İttifaqı ilə münasibətləri, iqtisadiyyatı, beynəlxalq əlaqələri, biznesi və dövlətin gündəlik idarəçiliyini nəzərə almalıdır. Məhz burada Vannacci üçün imkan açılır.

O, Meloninin əvvəlki seçicilərinin bir hissəsinə belə deyə bilər: “Daha sərt siyasət istəyirsinizsə, mən buradayam”. Bu, Meloni üçün ciddi siyasi problemdir, çünki Vannacci böyüdükcə, Meloninin sağındakı siyasi məkan daralır. Bəs elə isə Vannacci Melonini əvəzləyə bilərmi? Belə nəticəyə gəlmək hələ çox tezdir. Meloninin İtaliya Qardaşları partiyası hələ də Vannaccinin partiyasından dəfələrlə böyükdür, son sorğularda hakim partiya təxminən 27 faiz dəstək alıb. Futuro Nazionale isə 7 faiz ətrafındadır. Ona görə Vannaccini bu gün Meloninin əsas rəqibi adlandırmaq düzgün olmaz.

Lakin məsələnin mahiyyəti yalnız bugünkü rəqəmlərdən ibarət deyil, siyasətdə bəzən 7 faiz belə çox böyük əhəmiyyət daşıya bilər. Əgər bir partiya seçkilərdə hökumətin formalaşmasına təsir edə biləcək qədər deputat qazanırsa, həmin partiyanın siyasi çəkisi seçki faizindən daha böyük olur. Üstəlik, Vannaccinin partiyası hələ çox yenidir. Əgər o, şəxsi populyarlığını güclü təşkilata çevirə bilsə, yerli və parlament seçkilərində öz namizədlərini uğurla irəli sürsə və müxtəlif şəhərlərdə təşkilatlansa, onun siyasi çəkisi daha da artacaq. Amma bunun əksi də mümkündür. Vannaccinin bütün siyasi gücü şəxsən öz adına bağlıdır. Əgər onun ətrafında güclü komanda və təşkilat yaranmasa, partiya bir müddət sonra zəifləyəcək. İtaliya siyasətində bunun çox nümunəsi var.

davamı növbəti sayımızda

*Kəramət Qənbərov,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət qulluğu və kadr siyasəti” kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı*

# Şərtlər bəlli oldu - ABŞ yenidən prosesi ələ alır

## Vasitəçilər İsrail və HƏMAS-ı razılaşmağa çağırır

Yaxın Şərqdə gərginliyin yenidən alovlanmaması üçün Sülh Şurası növbəti dəfə tərəfləri razılığa gəlməyə çağırır. Belə ki, şura HƏMAS-ın silahsızlaşdırılmağa başlayacağı təqdirdə, İsrailə Qəzza zolağından qoşunlarını müvafiq olaraq geri çəkməyə və anklava humanitar yardımın çatdırılmasını sürətləndirməyə çağırış edib. Şura HƏMAS-dan silahları təhvil verməsini, hərbi infrastrukturu sökməsini, beynəlxalq qüvvələrin yerləşdirilməsinə razılıq verməsini və Qəzza zolağının yenidən qurulmasına yardım göstərməsini tələb edib.

### Kuşner HƏMAS-la görüşdü

Qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın elçisi Cared Kuşner Misirdə ölkə rəhbərliyi və HƏMAS nümayəndələri ilə görüşüb. Tərəflər hərəkatın silahsızlaşdırılması, anklavda hakimiyyətin texnokratik hökumətə ötürülməsi və HƏMAS-ın Qəzzanın gələcək idarəçiliyindən kənarlaşdırılması məsələlərini müzakirə ediblər. “Axios” xəbər verir ki, HƏMAS liderləri Kuşner və Sülh Şurası ilə Misirdə keçirilən görüşdə Qəzza zolağının tərksilah edilməsi və silahsızlaşdırılmasına sadiqliklərini bir daha təsdiqləyiblər. 90 dəqiqəlik görüş “çox məhsuldar” adlandırılıb - bu, onlara HƏMAS-ın öhdəliklərini yerinə yetirmək üçün praktik addımlar atdığını təsdiqləməyə imkan verib. “Axios” qeyd edir ki, Kuşner görüşdən HƏMAS rəhbərliyinə təzyiq göstərmək və tərksilah planına konkret addımlar atmağı tələb etmək üçün istifadə edib. Mənbələrə görə, Kuşner “məqsəd yüksəkdir” deyə vurğulayıb: İsrail qrupa etibar etmir və real nəticələr görənə qədər onun vədlərinə inanmayacaq. Kuşner həmçinin bildirib ki, silahsızlanma danışıqlar məsələsi deyil. “Heç bir qeyri-müəyyənlik ola bilməz: HƏMAS öz idarəetmə səlahiyyətlərindən və bütün silahlarından və hərbi infrastrukturundan imtina etməlidir. Qəzza isə bir daha İsrail üçün terror mənbəyi ola bilməz”, - deyə mənbə “Axios”-a bildirib.






### Qahirədə görüşlər...

Misir Prezidenti Əbdülfəttah əs-Sisinin mətbuat xidməti bildirib ki, Misir lideri avqustun 16-da Kuşneri Qahirədə qəbul edib. Görüşdə Yaxın Şərqdəki hadisələr müzakirə olunub. Tərəflər həmçinin Fələstin məsələsinə də toxunub və qeyd ediblər ki, bütün tərəflər 2025-ci ilin oktyabrında Şarm əl-Şeyxdə əldə edilən Qəzza müharibəsinə son qoymaq barədə razılaşma çərçivəsində öz öhdəliklərini yerinə yetirməlidirlər.

“Əl-Ərəbiyyə” və AFP mənbələri bildiriblər ki, Xəlil əl-Həyyanın rəhbərlik etdiyi HƏMAS nümayəndə heyəti də avqustun 16-da Misir kəşfiyyatının rəhbəri ilə görüşüb. Hər iki tərəf Qəzza üçün müharibədən sonrakı planın həyata keçirilməsini irəli aparmaq yollarını müzakirə edib.

“Əl-Ərəbiyyə”nin xəbərinə görə, HƏMAS lideri əlavə edib ki, Kuşnerlə danışıqlar son hadisələrə və İsraili razılaşmaya riayət etməyə məcbur etmək səylərinə yönəlib. HƏMAS nümayəndə heyəti həmçinin Misir rəsmilərini İsrailin atəşkəs pozuntuları barədə məlumatlandırmaq və İsrailin öhdəliyini bəyan etdikdən sonra hərəkatın razılaşmanı həyata keçirməyə hazır olduğunu vurğulamaq niyyətindədir.

AFP-nin HƏMAS daxilindəki mənbələrinə görə, Kuşnerin Misirə səfəri zamanı hərəkatın nümayəndə heyəti, Sülh Şurasının Qəzza üzrə ali nümayəndəsi, Bolqarıstan diplomatı Nikolay Mladenov və ABŞ rəsmiləri arasında razılaşma ilə bağlı maneələri müzakirə etmək üçün əlavə təmasların keçirilməsi də gözlənilir. İsrailin razılaşmalara riayət etməsini təmin etmək üçün Misir, Qətər və Türkiyə vasitəçiləri ilə də danışıqlar davam etdiriləcək.

### Növbəti mərhələyə keçmək üçün

Qeyd edək ki, danışıqlar ABŞ sülh planının növbəti mərhələsinə keçmək üzərində qurulub. Əsas şərtlər bunlardır:

HƏMAS üçün: Qəzza zolağının nəzarətini Fələstin texnokratik hökumətinə təhvil vermək və anklavın gələcəyində hər hansı siyasi və ya hərbi roldan tamamilə imtina etmək;

İsrail üçün: Əsl tərksilahın nümayişi halında, ABŞ İsraili Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin yerləşdirilməsi, Rəfah ərazisində yenidənqurma işlərinə başlamaq və qoşunların mərhələli şəkildə çıxarılması da daxil olmaqla “müvafiq addımlar” atmağa təşviq edəcək. HƏMAS planın ikinci mərhələsi üçün yol xəritəsi ilə razılaşdığını təsdiqləyib. Bu mərhələyə daimi atəşkəs, İsrail qoşunlarının tamamilə çıxarılması, humanitar yardım və yenidənqurma daxildir. Lakin qrup İsrailin davam edən hücumlarından narazılığını bildirib və İsraili razılaşmanın birinci mərhələsini yerinə yetirməməkdə günahlandırıb.

### Trampın şərtlərini İsrail yerinə yetirmir?

Xatırladaq ki, iyulun sonunda Donald Tramp Sülh Şurası və HƏMAS-ın “tarixi razılaşma” əldə etdiyini və bu razılaşmaya əsasən qruplaşmanın tamamilə tərksilah edilməsi barədə razılığa gəldiyini açıqlamışdı. Razılaşma həmçinin Qəzzadakı bütün digər silahlı qrupların silahsızlaşdırılmasını tələb edir.

İsrailin Baş naziri Binyamin Netanyahu isə HƏMAS-ın mərhələli tərksilah planını və şərtləri Sülh Şurası tərəfindən formalaşdırılmış atəşkəsin həyata keçirilməsi üçün atılacaq hər hansı əlavə addımları açıq şəkildə rədd etdi. Qeyd olunan atəşkəs şərtləri Donald Trampın rəhbərlik etdiyi Sülh Şurası tərəfindən formalaşdırılmışdı. “Axios”, adı çəkilməyən Amerika rəsmisinə istinadən bildirmişdi ki, Netanyahunun açıqlaması Ağ Ev tərəfindən rəsmi açıqlama kimi deyil, seçkiqabağı “siyasi oyun” kimi qəbul edilir.

### Trampın Netanyahuya seçki dəstəyi gecikir

“Axios” xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp hələ də İsraildə baş tutacaq seçkilərdən əvvəl Baş nazir Binyamin Netanyahuya gözlənilən dəstəyi verməyib və sonuncunun hazırkı məqsədi qazanmaq deyil, uduzmamaqdır.

Nəşrin qeyd etdiyi kimi, iki həftə əvvəl Oval Ofisdə maraqlı epizod baş verib. Tramp seçkilərdən əvvəl Netanyahunun təsdiq reytinqləri barədə soruşanda, Baş nazirin müşavirlərindən biri tez bir zamanda müdaxilə edib: “Cənab Prezident, o qalib gəlir”. Lakin son sorğulara görə, Netanyahunun hazırkı koalisiyası 68 yerdən 49-53 yerə qədər azala bilər ki, bu da hökumət qurmaq üçün ciddi bir çatışmazlıqdır. Netanyahunun əsas rəqibi, keçmiş Baş Qərargah rəisi Qadi Eizenkot əksər sorğularda liderlik edir.

### HƏMAS vasitəçilərə müraciət etdi

Qeyd edək ki, Kuşnerlə görüşün ardından HƏMAS bəyanat yayıb. Bəyanatda bildirilib ki, vasitəçilər və Sülh Şurası İsrailə Qəzza zolağında atəşkəs razılaşmasına riayət etməsi və sülh planının ikinci mərhələsinə keçidi təsdiqləməsi üçün təzyiq göstərməlidir. “Biz vasitəçiləri və Sülh Şurasını İsraili Qəzza razılaşması üzrə öhdəliklərini yerinə yetirməyə və onun ikinci mərhələsinin həyata keçirilməsi planını təsdiqləməyə çağırırıq”, - HƏMAS-ın “Telegram” kanalında dərc olunmuş bəyanatda bildirilib. Radikallar onlara təklif olunan yol xəritəsi ilə razı olduqlarını təsdiqləyiblər, lakin bunun nələri əhatə etdiyini ətraflı izah etməyiblər.

Qeyd edək ki, 2025-ci ilin oktyabr ayında İsrail və HƏMAS Misir, Qətər, ABŞ və Türkiyənin vasitəçiliyi ilə Qəzza zolağında atəşkəs razılaşmasına nail olublar. Təşəbbüsün üç mərhələdən ibarət olması nəzərdə tutulur: birinci mərhələ hərbi əməliyyatların dayandırılması, saxlanılan girovların azad edilməsi, İsrail qoşunlarının qismən geri çəkilməsini, sonrakı mərhələ isə münaqişəyə son qoyulmasını və anklavın bərpasını nəzərdə tutur, lakin tərəflər hələlik razılaşmanın ikinci mərhələsinə keçə bilməyiblər.

*SADİQ*

# Hörmüz boğazı:
## İranın əlində güclü siyasi silah

### ABŞ-la İran arasındakı mübarizənin mərkəzində duran dar su yolu dünyanın enerji təhlükəsizliyi üçün niyə bu qədər vacibdir?

Hörmüz boğazı xəritədə çox böyük görünən bir ərazi deyil. İranla Oman arasında yerləşən bu dar su yolu Fars körfəzini Oman körfəzi və Ərəbistan dənizi ilə birləşdirir. Amma onun əhəmiyyəti ölçüsündən qat-qat böyükdür, çünki dünyanın ən vacib neft və qaz yollarından biri məhz buradan keçir. Bu səbəbdən Hörmüz boğazında baş verən hər hansı hadisə yalnız İranı və ya ABŞ-ı maraqlandırmır, Asiyadan Avropaya qədər dünyanın bir çox ölkəsinin iqtisadiyyatına təsir göstərir. Bu gün Hörmüz ətrafında yaranan vəziyyət buna əyani sübutdur. İran Omanla gəmilərin təhlükəsiz keçidi barədə müəyyən razılaşmaların mümkün olduğunu bildirsə də, bu, boğazın tam şəkildə açılması demək deyil. Tehran boğazın tam açılması məsələsini ABŞ tərəfindən İrana qarşı tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması və bir sıra siyasi-iqtisadi tələblərlə əlaqələndirir. "Reuters"-in məlumatına görə, İran kompensasiya ödənilməsini, sanksiyaların götürülməsini, ABŞ-ın İrana tətbiq etdiyi blokadanın dayandırılmasını və dondurulmuş İran aktivlərinin azad olunmasını tələb edir.

Bu vəziyyət Hörmüz məsələsini adi dəniz təhlükəsizliyi problemindən çıxarıb daha böyük siyasi məsələyə çevirir. İran faktiki olaraq göstərir ki, dünyada əvəzlənməsi çox çətin olan strateji bir yola nəzarət daha güclü iqtisadi və hərbi imkanlara malik dövlətə qarşı da ciddi siyasi təzyiq vasitəsi yarada bilər. Məsələ yalnız gəmilərin Hörmüzdən keçib-keçməyəcəyində deyil, qarşıda duran başlıca sual budur: dünyanın ən vacib dəniz yollarından birinə nəzarət siyasi danışıqlarda təzyiq vasitəsinə çevrilərsə, bunun beynəlxalq hüquqa və dünya enerji təhlükəsizliyinə hansı təsirləri olacaq?

### Hörmüzün əsas gücü coğrafiyasındadır

Hörmüz boğazının strateji əhəmiyyətinin əsas səbəbi onun coğrafi yerləşməsidir. Boğaz Fars körfəzini Oman körfəzi və Ərəbistan dənizi ilə birləşdirir. Ən dar yeri təxminən 21 dəniz milidir. İran və Oman burada geniş ərazi sularına malikdir. İlk baxışdan başqa yolların olduğu düşünülə bilər; məsələn, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərində nefti müəyyən məsafədə boru kəmərləri ilə Hörmüzdən yan keçirməyə imkan verən alternativ yollar var. Amma həmin yollar Hörmüzdən keçən bütün neft və qazın yerini doldura biləcək gücdə deyil. ABŞ Enerji İnformasiyası Administrasiyasının məlumatına görə, 2025-ci ilin ilk yarısında Hörmüzdən gündə orta hesabla təxminən 20,9 milyon barrel neft keçib. Bu, dünyada gündəlik neft və neft məhsulları istehlakının təxminən beşdə birinə, dəniz yolu ilə daşınan neftin isə təxminən dörddə birinə bərabərdir.

Qaz baxımından da vəziyyət oxşardır. 2024-cü ildə dünyada dəniz yolu ilə daşınan mayeləşdirilmiş təbii qazın təxminən beşdə biri Hörmüz boğazından keçib. Qətər hər gün təxminən 9,3 milyard kub fut mayeləşdirilmiş qazı bu yolla ixrac edib. Birləşmiş Ərəb Əmirlikləri də boğazdan böyük həcmdə qaz ixrac edir. Bu rəqəmlər bir şeyi aydın göstərir: Hörmüz dünyanın enerji sistemində kiçik bir su yolu yox, böyük bir damar rolunu oynayır. Burada bir tanker gecikəndə bunun təsiri minlərlə kilometr uzaqda hiss oluna bilər; neftin daşınması azalanda Asiyada qiymətlər arta bilər; qaz təchizatında problem yarananda elektrik enerjisinin qiyməti yüksələ bilər; problem uzun müddət davam edərsə, bu, inflyasiyanı da sürətləndirə bilər. Hətta real qıtlıq yaranmasa belə, bazarlarda "təchizat dayana bilər" qorxusu qiymətlərin qalxmasına kifayət edir.

### İran Hörmüzü siyasi təzyiq vasitəsinə necə çevirir?

İranın hazırkı mövqeyi göstərir ki, Hörmüz boğazı sadəcə gəmilərin keçidiyi yol kimi qəbul olunmur. Tehran bu yoldan siyasi danışıqlarda əlavə təsir imkanları qazanmaq üçün istifadə edir. İran gəmilərin təhlükəsiz hərəkəti barədə Omanla danışıqları boğazın tam açılması məsələsindən ayrı tutur. Bu, çox mühüm fərqdir, Tehran demək istəyir ki, məsələ yalnız gəmilərin təhlükəsizliyi və dəniz nəqliyyatı ilə bağlı texniki problem deyil. İran Hörmüz məsələsini ABŞ-la daha geniş siyasi və iqtisadi danışıqların bir hissəsinə çevirir - bu, beynəlxalq siyasətdə geosiyasi təzyiq vasitəsi adlandırılan vəziyyətə nümunədir. Burada maraqlı məqam odur ki, bir dövlət rəqibindən iqtisadi və ya hərbi baxımdan zəif olsa belə, rəqibinin əvəz edə bilmədiyi mühüm bir resursa və ya yola nəzarət edərsə, böyük siyasi təsir imkanına sahib ola bilər. Hörmüz də məhz belə bir yoldur. Birləşmiş Ştatların regionda çox böyük hərbi imkanları var, ABŞ Hərbi Dəniz Qüvvələrinin gücü İranla müqayisəyə gəlməz. Amma burada başqa məsələ ortaya çıxır: hərbi güc coğrafiyanın yaratdığı problemi tam aradan qaldıra bilmir. ABŞ istəsə, İranı boğazı açmağa məcbur etmək üçün hərbi təzyiq göstərə bilər, lakin belə bir addım bölgədə müharibəni daha da genişləndirə, nəticədə ABŞ-ın qorumaq istədiyi enerji bazarına daha böyük zərbə vura bilər. Bu, Vaşinqton üçün mühüm strateji dilemma yaradır.

Hörmüz məsələsinin başqa mühüm tərəfi beynəlxalq hüquqla bağlıdır. Dəniz hüququ haqqında BMT Konvensiyasında beynəlxalq gəmiçilik üçün istifadə olunan boğazlarla bağlı xüsusi qaydalar var. Konvensiyanın 38-ci maddəsinə əsasən, müəyyən beynəlxalq boğazlarda "tranzit keçid" hüququ mövcuddur və bu keçidə manea törətmək olmaz. Bu hüquq gəmilərin və təyyarələrin beynəlxalq sulardan və ya xüsusi iqtisadi zonalardan digər belə ərazilərə fasiləsiz və sürətli şəkildə keçməsini ehtiva edir.



Burada əsas məqsəd iki prinsip arasında tarazlıq yaratmaqdır: bir tərəfdə sahilyanı dövlətin öz ərazi suları üzərində suverenliyi, digər tərəfdə isə dünyanın ümumi ticarəti üçün vacib olan dəniz yollarından sərbəst istifadə etmək hüququ dayanır. Hörmüz bu iki prinsipin bir-biriylə niyə toqquşduğunu göstərən ən yaxşı nümunələrdən biridir.

Burada başqa bir hüquqi məsələ də var: həm İran, həm də ABŞ BMT-nin Dəniz Hüququ Konvensiyasına tərəf deyil, lakin bu, həmin konvensiyada əks olunan bütün prinsiplərin onlar üçün əhəmiyyətsiz olması mənasına gəlmir. Konvensiyanın bir sıra müddəaları beynəlxalq adət hüququnun bir hissəsi kimi qəbul edilir. Bununla belə, konkret vəziyyətlərdə bu qaydaların necə tətbiq olunacağı barədə mübahisələr yarana bilər.

### Gəmi keçidinə icazə başqa, beynəlxalq hüquq başqa

Hörmüz məsələsində ən çox diqqət tələb edən məqamlardan biri budur. Bir dövlət gəmilərin təhlükəsiz keçməsi üçün müəyyən marşrutlar, təhlükəsizlik qaydaları, müşayiət və yoxlama prosedurları tətbiq edə bilər. Amma bu, beynəlxalq boğazdan keçidin tamamilə həmin dövlətin siyasi icazəsindən asılı olduğu anlamına gəlmir. Məhz burada çətin suallar meydana çıxır: müharibə şəraitində sahilyanı dövlət təhlükəsizlik səbəbiylə gəmilərin keçidini məhdudlaşdıra bilərmi? Hansı hallarda gəmini yoxlamaq qanuni sayılır? Hərbi gəmilərlə kommersiya gəmilərinə münasibət fərqli ola bilərmi? Münaqişə vəziyyətində olan dövlətin gəmilərinə keçid məhdudlaşdırıla bilərmi? Təhlükəsizlik tədbiri hansı nöqtədə qanunsuz maneəyə çevrilir?

Bu sualların heç birinə sadəcə "bu ərazi bizimdir" deməklə cavab vermək mümkün deyil. Beynəlxalq dəniz hüququ məhz belə hallarda dövlətlərin suverenliyi ilə beynəlxalq gəmiçilik maraqları arasında tarazlıq yaratmaq üçün mövcuddur.

Hörmüzə münasibətdə İranla ABŞ-ın mövqeləri bir-birindən ciddi fərqlənir. İranın baxışına görə, söhbət ilk növbədə milli təhlükəsizlikdən, suverenlikdən və xarici təzyiqə qarşı mübarizədən gedir. Tehran özünü hərbi təzyiq, sanksiyalar və müxtəlif dəniz məhdudiyyətləri ilə üzləşən dövlət kimi görür. ABŞ isə məsələyə başqa tərəfdən yanaşır; Vaşinqton üçün Hörmüzdən sərbəst keçid yalnız İran və ABŞ arasında münasibət məsələsi deyil, dünya ticarətinin və enerji təhlükəsizliyinin bir hissəsidir. Beləliklə, eyni su yolu iki tərəf üçün tamamilə fərqli mənalar daşıyır: İran üçün Hörmüz - suverenlik və siyasi təzyiq vasitəsidir; ABŞ və müttəfiqləri üçün Hörmüz - sərbəst gəmiçilik və dünya iqtisadiyyatının təhlükəsizliyidir; gəmiçilik şirkətləri üçün Hörmüz - riskdir; enerji bazarları üçün - qeyri-müəyyənlikdir; neft və qaz idxal edən ölkələr üçün isə - böyük həssaslıqdır. Ona görə də Hörmüz məsələsini yalnız İranla ABŞ arasında mübahisə kimi qiymətləndirmək düzgün olmaz. Bunun nəticələrini dünyanın çox ölkəsi hiss edə bilər.

### Hörmüz dünyada tək deyil

Hörmüz problemi dünyadakı daha böyük prosesin yalnız bir hissəsidir. Dünya iqtisadiyyatı bir neçə mühüm dəniz keçidindən ciddi şəkildə asılıdır: Malakka boğazı, Bab-ül-Məndəb, Süveyş kanalı, Bosfor və Hörmüz boğazı bunlara nümunədir. Qloballaşma dünya ticarətini daha sürətli və ucuz hala gətirib. Lakin bunun başqa tərəfi də var: ticarət yolları az sayda marşrutda cəmləşdikcə həmin marşrutlardan birində problem yarananda təsir daha böyük olur. Sülh və sabitlik dövründə bu, iqtisadi üstünlükdür, müharibə və böhran zamanı isə böyük zəifliyə çevrilir. Məhz buna görə qarşıdakı illərdə strateji boğazlar uğrunda geosiyasi mübarizənin daha böyük əhəmiyyət qazanması mümkündür. İqlim dəyişiklikləri, böyük dövlətlər arasındakı rəqabət, regional müharibələr və mühüm infrastruktur üzərində nəzarət uğrunda mübarizə dəniz yollarını daha həssas vəziyyətə gətirə bilər.

Əslində, əsas məsələ İranla ABŞ arasındakı qarşıdurmada kimin üstün gələcəyi deyil. Problem daha qəlizdir: böyük dövlətlər arasında qarşıdurma gücləndiyi zaman beynəlxalq ictimaiyyət dünyanın əsas infrastrukturunu qoruyan qaydaları saxlaya biləcəkmi? Siyasi maraqlar və hüquqi öhdəliklər bir-birinə uyğun gələndə beynəlxalq hüquq daha asan işləyir. Amma hüququn əsl əhəmiyyəti məhz maraqlar toqquşanda ortaya çıxır. Sərbəst gəmiçilik prinsipi də belə vəziyyətlər üçün yaradılıb. Fəqət beynəlxalq hüquq qaydalarının işləməsi üçün dövlətlərin həmin qaydalara siyasi dəstək verməsi də lazımdır. Əgər dövlətlər getdikcə strateji dəniz yollarından siyasi təzyiq vasitəsi kimi daha çox istifadə etməyə başlasalar, dünya ticarətinin sabitliyi sarsıla bilər. Böyük dövlətlər bu problemlərə əsasən birtərəfli təzyiq və hərbi güclə cavab versələr, qarşıdurmanın daha da böyüməsi təhlükəsi yaranar. Bunun alternativi zəiflik deyil, hüquqa hörmət, diplomatiya və inandırıcı çəkindirmə mexanizmlərinin birlikdə işləməsidir.

Hörmüz İran üçün ona görə böyük siyasi əhəmiyyət daşıyır ki, bu boğazı əvəz etmək çox çətindir. Elə ona görə də bu ərazi təhlükəlidir. Strateji əhəmiyyət daşıyan və əvəzlənməsi çətin olan bir yola nəzarət edən dövlət böyük siyasi təsir gücü qazana bilər; amma həmin gücdən uzun müddət yararlanmaq həmin dövlətin özünə də iqtisadi və siyasi zərər vura bilər. İran Hörmüzdən istifadə etməklə ABŞ-a təzyiq göstərə bilər, öz növbəsində ABŞ da sanksiya və hərbi imkanlarla İrana təzyiq göstərə bilər, amma tərəflərdən heç biri boğazda uzunmüddətli böhranın nəticələrindən tam uzaq qala bilməz. Çünki bu mübarizənin üçüncü tərəfi enerji bazarı, dördüncü tərəfi Asiyanın enerji idxal edən ölkələri, beşinci tərəfi Avropa istehlakçıları, altıncı tərəfi isə bütün dünya gəmiçilik sənayesidir. Məhz buna görə Hörmüz məsələsi iki ölkə arasındakı adi mübahisədən daha böyükdür. İki dövlətin verdiyi qərar onlarla başqa ölkənin iqtisadi vəziyyətinə təsir göstərə bilər.

### Oman niyə bu qədər vacibdir?

Bu məsələdə Oman xüsusi yer tutur. Oman Hörmüz boğazının yerləşdiyi strateji dəniz ərazisinin digər tərəfindədir və uzun illər ərzində bir-biriylə birbaşa danışmaqda çətinlik çəkən tərəflər arasında əlaqə yaratmağa çalışan ölkə kimi tanınıb. İranla Oman arasında gəmilərin təhlükəsiz keçidi ilə bağlı aparılan müzakirələr də bu baxımdan əhəmiyyətlidir. İki ölkə gəmilərin təhlükəsiz hərəkəti üçün müəyyən mexanizmləri müzakirə edə bilər, bununla yanaşı, İranın ABŞ-la əsas siyasi problemi həll olunmaya bilər. Bu isə diplomatiya üçün maraqlı imkan yaradır: bəzən böyük siyasi problemin həllinə daha kiçik və konkret məsələdən başlamaq mümkündür. Məsələn, tərəflər bütün siyasi problemləri bir anda həll edə bilməsələr də, gəmilərin təhlükəsiz keçidi barədə razılığa gələ bilərlər. Belə bir razılaşma həm iqtisadi təzyiqi azalda, həm də gələcək siyasi danışıqlara yol aça bilər.

Hörmüz məsələsinin dünya üçün ən böyük əhəmiyyəti enerji ilə bağlıdır. Neft bazarında qiymətlər yalnız bu gün nə qədər neftin olduğunu nəzərə almır, bazar iştirakçıları sabah nə baş verə biləcəyinə də baxırlar. Əgər treyderlər Hörmüzdən neft daşınmasının uzun müddət dayanacağını düşünürlərsə, gələcəkdə neft qıtlığı yarana biləcəyi ehtimalını qiymətlərə əvvəlcədən daxil edirlər. Beləliklə, dünyada neftin real həcmi hələ ciddi şəkildə azalmamış, qiymətlər arta bilər.

Qaz bazarında da eyni vəziyyət yaşana bilər. 2024-cü ildə dünyada mayeləşdirilmiş təbii qaz ticarətinin təxminən 20 faizi Hörmüzdən keçib və həmin qazın böyük hissəsi Asiya ölkələrinə gedib. Çin, Hindistan və Cənubi Koreya bu axının yarısından çoxunu təşkil edib. Deməli, siyasi münaqişə Vaşinqtonla Tehran arasında gedərsə də, bunun iqtisadi nəticələri minlərlə kilometr uzaqda hiss oluna bilər. Ən çox zərər görə biləcək ölkələr arasında Asiyanın böyük enerji idxalçıları var. Avropa ölkələri də alternativ enerji mənbələri uğrunda rəqabətin artmasından təsirlənə bilər. İnkişaf etmədə olan ölkələr üçün isə enerji qiymətlərinin yüksəlməsi daha ağır nəticələr yarada bilər, çünki bahalaşan yanacaq nəqliyyat, elektrik enerjisi və ərzaq qiymətlərinin artmasına yol açır.

### Hərbi güc hər problemi həll etmir

Hörmüz böhranının ən mühüm dərslərindən biri də budur: böyük hərbi gücə sahib olmaq hər zaman geosiyasi zəifliyi aradan qaldırmır. ABŞ nəhəng hərbi donanmaya malikdir və gəmiləri müşayiət edə, təhlükələri aradan qaldırmağa çalışa, mina təhlükəsinə qarşı əməliyyatlar keçirə bilər. Lakin hərbi müdaxilə vəziyyəti daha da gərginləşdirər, boğazın daha təhlükəli vəziyyətə düşməsinə səbəb olar. Burada paradoksal vəziyyət yaranır: ABŞ Hörmüzün təhlükəsizliyini təmin etmək üçün nə qədər sərt hərbi tədbirlər görsə, həmin addımların özünün bölgədə daha böyük qarşıdurmaya səbəb olmaq ehtimalı da arta bilər. Bu səbəbdən hərbi güc lazımdır, amma təkcə güclə iş aşmır, diplomatiya, qarşı tərəfi çəkindirə bilmək, dəniz təhlükəsizliyi üzrə əməkdaşlıq və enerji mənbələrinin şaxələndirilməsi də eyni dərəcədə vacibdir. İran üçün də vəziyyət oxşardır: Tehran Hörmüzdən siyasi təzyiq vasitəsi kimi istifadə edə bilər, amma boğazın uzun müddət bağlı qalması Tehranın öz iqtisadi maraqlarına və qonşu ölkələrlə münasibətlərinə də zərər vura bilər.

Hörmüzdə baş verənlər dövlətləri enerji təhlükəsizliyinə əvvəlkindən fərqli baxmağa məcbur edir. Əvvəllər enerji təhlükəsizliyi deyəndə əsasən kifayət qədər neft və qazın olması nəzərdə tuturdu, bu gün isə bu yanaşma yetərli deyil. Ölkənin kifayət qədər nefti, qazı ola bilər, amma həmin enerji resurslarını daşıyan yol təhlükə altında qalarsa, ölkə yenə də ciddi problemlə üzləşə bilər. Buna görə gələcək enerji təhlükəsizliyi bir neçə istiqamətdə qurulmalıdır: enerji mənbələri və təchizatçıları müxtəlif olmalıdır; alternativ nəqliyyat yolları yaradılmalıdır; strateji enerji ehtiyatları artırılmalıdır; LNG infrastrukturu genişləndirilməlidir; alternativ boru kəmərlərinin imkanları artırılmalıdır; dəniz yollarının təhlükəsizliyi qorunmalıdır; regional münaqişələrin dünya iqtisadiyyatına yoluxmasının qarşısını alan diplomatik mexanizmlər gücləndirilməlidir.

Səudiyyə Ərəbistanı və BƏƏ-nin Hörmüzdən yan keçən boru kəmərləri var, amma həmin kəmərlərin gücü normal vaxtlarda Hörmüzdən daşınan böyük həcmin yerini doldura bilmir. Deməli, Hörmüzün tam alternativi hazırda yoxdur. Uzunmüddətli həll yolu yeni marşrut tapmaq yox, dünyanın enerji sistemini elə qurmaqdır ki, heç bir tək boğaz və ya tək nəqliyyat xətti bütün dünya üçün həddindən artıq böyük əhəmiyyət daşımasın.

### Bir boğaz bütün dünyanı sınağa çəkir

Hörmüz boğazı ətrafında yaranan indiki qarşıdurma yalnız İranın siyasi strategiyasını və ya ABŞ-ın hərbi gücünü sınaqdan keçirmir. Bu qarşıdurma beynəlxalq sistemin özünü sınağa çəkir. Sual budur: dünyada siyasi gərginlik artanda belə əsas dəniz yolları əvvəlki kimi aydın və hamı üçün başadüşülən beynəlxalq qaydalar əsasında fəaliyyət göstərə biləcəkmi?

İran göstərir ki, coğrafi üstünlük bəzən iqtisadi və hərbi gücü daha böyük olan dövlətə qarşı da ciddi siyasi təzyiq yarada bilər. ABŞ isə öz növbəsində nümayiş etdirir ki, hərbi və maliyyə gücü regional rəqibə böyük təzyiq göstərmək imkanına malikdir. Amma bu iki gücün heç biri problemin tam həlli deyil.

Davamlı həll yolu strateji əhəmiyyət daşıyan infrastrukturu dövlətlərin siyasi silaha çevirməsinə olan marağı azaltmaqdan keçir. Bunun üçün daha güclü diplomatik mexanizmlər, enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq dəniz hüququnun əsas prinsiplərinə daha ciddi əməl olunması lazımdır.

Dünya Hörmüzün həmişə açıq qalacağına arxayın ola bilməz. Eyni zamanda, yalnız hərbi gücün onun daim açıq qalmasını təmin edəcəyini də düşünmək olmaz. Bu böhranın əsas dərsi çox sadədir: dünya enerji təhlükəsizliyi dəniz yollarının sərbəst və təhlükəsiz fəaliyyətindən asılıdır; dəniz yollarının təhlükəsizliyi isə yalnız hərbi gəmilərdən yox, beynəlxalq qaydaların işləməsindən və dövlətlərin həmin qaydalara hörmət etməsindən asılıdır. Əgər Hörmüz boğazı uzun müddət geosiyasi alver vasitəsinə çevrilərsə, bunun nəticələri yalnız Fars körfəzi ilə məhdudlaşmayacaq, dünyanın müxtəlif yerlərində enerji qiymətindən tutmuş ərzaq və nəqliyyat xərclərinə qədər insanlar bu böhranın nəticələrini dadacaqlar. Ona görə də Hörmüz məsələsi bir su yolunda yaranmış adi problem deyil, dünya iqtisadiyyatının nə qədər təhlükəsiz və davamlı qurulduğuna dair məsələdir. İrəlidəki illərin başlıca sualı da budur: dünya coğrafiyanın siyasi silaha çevrilməsinin qarşısını ala biləcəkmi?



***Kəramət Qənbərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# 107 yaşlı DSX!

## Sərhədlərimizin keşiyində keçən şərəfli tarix...




"Sərhəd" anlayışı hər bir xalq üçün xüsusi məna daşıyır və müqəddəs hesab olunur. Çünki sərhəd dövlətin müstəqilliyinin hökm sürdüyü ərazinin bütövlüyünü və toxunulmazlığını ifadə edir. Bu sərhədlər həm də hər birimizin doğulduğu, böyüdüyü və Vətən bildiyi torpaqları əhatə edir.

Azərbaycan əsgəri Vətənin havasını qoruyur ki, udmağa nəfəsi olsun, suyunu qoruyur ki, damarlarında qanı olsun, torpağını qoruyur ki, üzərində gəzməyə haqqı olsun. Vətən keşikçiləri doğulub boya-başa çatdıqları yurdu qorumaqla onun gerbinə, bayrağına, himnindəki misralarına çevrilə bilir. Yəni Azərbaycan əsgəri dövlətinin sərhədlərinin etibarlı müdafiəsini təşkil etməklə müstəqillik rəmzlərinin də qoruyucusuna çevrilir. Beləliklə, hər bir vətəndaş sərhəddəki, səngərdəki, döyüş növbəsindəki əsgərə söykənir.

## Sərhəd Qoşunlarımızın keçdiyi tarixi yol

Bu gün Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramıdır. Azərbaycanda milli sərhəd xidmətinin yaranma tarixi Azərbaycan Xalq Cumhuriyyəti (AXC) dövrünə, 1918-ci ilə gedib çıxır. Həmin il iyunun 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılıb, digər istiqamətlərdə də bənzər məntəqələrin yaradılması işinə başlanılıb. 1919-cu il avqustun 18-də Azərbaycan Demokratik Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul edib. Bundan sonra əlavə olaraq 99 post yaradılaraq Azərbaycan sərhədlərinin mühafizəsi təşkil edilib. Lakin 1920-ci ildə AXC süqut etdiyindən sərhəd mühafizəsinin formalaşması prosesi yarımçıq qaldı.

90-cı illərin əvvəlində tarixinin ən ağır günlərini yaşayan Azərbaycan ermənilərin işğalçı siyasəti nəticəsində torpaqlarının 20 faizini itirdi. 30 ilə yaxın müddətdə 132 kilometrlik İran-Azərbaycan sərhədini nəzarətdə saxlayan Ermənistan bu illər ərzində həmin əraziləri "boz zona" kimi istifadə edərək qaçaqmalçılıq fəaliyyəti ilə məşğul olub.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra isə qonşu dövlətlərlə sərhədlərini daha da möhkəmləndirdi. Azərbaycan Türkiyə, Rusiya, İran, Gürcüstan və Ermənistanla sərhəddə yerləşir. Xəzər dənizi vasitəsilə isə Türkmənistan və Qazaxıstanla sərhədləri var.

Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş, DSX-nın təşkilinə qədər bütün proseslər bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının çox ağır, çətin və mürəkkəb dövründə ordu quruculuğu sahəsində də böyük işlər görməyə nail oldu. Təsadüfi deyil ki, o, Ali Məclisin sədri seçildikdən cəmi 3 gün sonra, 1991-ci il sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması barədə qərar verdi. Belə bir qərar qəbul etməklə uzaqgörən sərkərdə Azərbaycanın ilk peşəkar, vahid rəhbərliyə tabe olan Milli Ordusunun əsasını qoydu. Ulu Öndərin rəhbərliyi ilə Milli Müdafiə Komitəsinin statusu, strukturu, təşkili haqqında qanunvericilik bazası yaradıldı. Fəaliyyət istiqamətləri müəyyənləşdirildi və Naxçıvandakı sovet hərbi hissələrinin milliləşdirilməsi prosesinə başlanıldı. Bu proses çox çətin şəraitdə başlasa da, incə siyasətlə və böyük məharətlə həyata keçirilirdi. Şəraiti çətinləşdirən amillərdən biri də bu idi ki, o zaman respublikaya rəhbərlik edənlər ölkənin maraqlarını qorumağa qadir deyildilər. Buna görə də Ulu Öndər Naxçıvanda bütün Azərbaycanın mənafelərini qorumaq üçün müstəqil qərarlar qəbul etmək məcburiyyətində idi. O vaxt qəbul edilmiş həmin müstəqil qərarlar sonralar müstəqillik tariximizin şanlı səhifələri kimi qürur mənbəyinə çevrildi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvan ərazisində yerləşən hərbi hissələrin texnika və hərbi əmlakı heç bir şərt qoyulmadan xalqımızın ixtiyarına verildi. Beləliklə, sovet sərhədçiləri Naxçıvandan yola salındı.

## İlk andiçmə mərasimi

1992-ci il oktyabr ayının 18-də Naxçıvan Sərhəd Dəstəsində gənc əsgərlərin andiçmə mərasimi keçirildi. Bu andiçmə Azərbaycan Respublikasının milli sərhədçilərinin ilk andiçmə mərasimi idi. Andiçmə mərasimində iştirak edən Heydər Əliyev sərhədçiləri təbrik edərək, bu sözləri dedi: "Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının son 70 ildə xidmətə gedən oğulları daim sovet ordusuna, sovet dövlətinə sədaqətlə xidmət edəcəklərinə and içərdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən şərəfli, ən xoşbəxt an ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub, Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaqla məşğuldur. Bu baxımdan, ən mühüm sahə olan Sərhəd Qoşunlarının yaradılması prosesi gedir".

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan Ulu Öndərin milli sərhəd siyasətini uğurla davam etdirir. Ölkə başçısı sərhədçiləri və Sərhəd Qoşunlarını daim dövlət qayğısı ilə əhatə edir. İlham Əliyevin ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri DSX-nın inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürüdür.

## DSX-nin "qara qüvvə"lərlə mübarizəsi...

Beynəlxalq terrorizmə, qaçaqmalçılığa, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı DSX-nin qazandığı uğurlar özünəməxsus rol oynayır. Həmçinin qeyri-qanuni miqrasiyaya qarşı qətiyyətlə mübarizə aparılması, ölkəmizdə daxili sabitliyin qorunması kimi vacib vəzifələrin öhdəsindən şərəflə gəlməklə Sərhəd Qoşunları şərəfli bir vəzifəni yerinə yetirir. Dövlət sərhədçiləri Azərbaycanı stabil ölkə kimi görmək istəməyən "qara qüvvə"lərlə mübarizədə daim ön cəbhədə yer alır...

## Sərhədçilərimiz Vətən müharibəsində

İkinci Qarabağ müharibəsində də DSX-nin Sərhəd Qoşunları xüsusi qəhrəmanlıq göstərib. DSX bölmələri müharibənin ilk günlərindən döyüşlərə qatılıb, Xudafərin körpüsünü və Zəngilanın Ağbənd qəsəbəsini düşmən işğalından azad edib.

Azərbaycan sərhədçiləri Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşanın azad olunmasında da qəhrəmanlıqlar göstəriblər.

Müharibənin ilk günü 105 km ərazi sərhədçilərimiz tərəfindən azad edilib. Qazanılmış Zəfər sayəsində 132 kilometrlik Azərbaycan-İran sərhədi Silahlı Qüvvələrimizin nəzarətinə keçib.

Bu gün ölkəmizdə nizami ordu səviyyəsində, çevik, mütəşəkkil, yüksək döyüş hazırlığına malik Dövlət Sərhəd Xidməti mövcuddur. Azərbaycanın müqəddəs sərhədləri etibarlı və inamlı əllərdədir...

*Yeganə BAYRAMOVA*

# Bakı metrosunda dəyişiklik...

## Sərnişinləri nə gözləyir?

Avqustun 15-dən metroda yeni mərhələ başlayıb. "Dərnəgül", "Azadlıq prospekti", "Nəsimi", "Memar Əcəmi", "20 Yanvar", "İnşaatçılar" və digər stansiyalardan gələn sərnişinlər artıq birbaşa "28 May" stansiyasına gedə bilmir, qatarlar "Nizami" stansiyasına qədər hərəkət edir.

"Nizami"dən sonra "28 May" istiqamətində hərəkət etmək istəyən sərnişinlər alternativ nəqliyyatdan istifadə etməli və ya mövcud keçid imkanlarından yararlanmalıdırlar. Qeyd edək ki, dəyişiklik Bakı metrosunda Qırmızı və Yaşıl xətlərin ayrılması layihəsi çərçivəsində həyata keçirilir. Layihə nəticəsində xətlərin müstəqil fəaliyyət göstərməsi nəzərdə tutulur. "28 May" və "Cəfər Cabbarlı" stansiyaları isə xətlər arasında əsas keçid məntəqələridir.

Təbii ki, xətlərin ayrılması gündəlik gediş-gəlişə təsir edir. Sərnişinlər artıq bəzi istiqamətlər üzrə başqa qaydada hərəkət etməli olurlar. Bu dəyişiklik ilk baxışda sadə görünə bilər. Amma hər gün metrodan istifadə edənlər üçün məsələ daha ciddidir. Çünki minlərlə insanın marşrutu dəyişir.

Bəs xətlərin ayrılması nə üçün vacibdir? Sərnişinləri hansı dəyişikliklər gözləyir? Keçidlər necə təşkil olunur? Metro istifadəçilərinin əsas sualları da bunlardır.

Mütəxəssislərin fikrincə, xətlərin ayrılması hərəkətin daha stabil təşkilinə imkan verə bilər. Qatarların intervalının azalması da əsas gözləntilərdəndir. Amma dəyişikliklərin ilk günləri heç də asan keçmir. Sərnişinlərin yeni marşrutlara uyğunlaşması vaxt aparır.

## Ən çox qarışdırılan məqam...

"Xətt ayrılır" ifadəsi metro xəttinin bağlanması demək deyil. Bu, xəttin müəyyən hissədən sonra müxtəlif istiqamətlər üzrə davam etməsi ilə bağlı ola bilər. Belə ki, metroda bir neçə saniyəlik diqqət bəzən uzun bir yolun səhv istiqamətdə getməsinin qarşısını alır.




## Sərnişinlər nə etməlidir?

Belə hallarda ən vacib məqam qatarın üzərində və stansiyadakı elektron lövhələrdə göstərilən istiqamətə diqqət etməkdir. Çünki eyni xətt üzrə hərəkət edən qatarların son dayanacağı fərqli ola bilər. Məsələn, sərnişin müəyyən stansiyaya getmək istəyirsə, yalnız xəttin adına deyil, qatarın istiqamətinə və son stansiyasına da baxmalıdır. Əks halda, başqa yola gedən qatara minmək mümkündür.

## "Qırmızı xətt"də interval maksimum 2 dəqiqə olacaq

"Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov bildirib ki, "Bakı Metropoliteni"ndə 2028-ci ildə yeni depo infrastrukturunun inşası başa çatdırılandan sonra "Qırmızı xətt" üzrə qatarlar arasında intervalın maksimum 2 dəqiqəyədək azaldılması nəzərdə tutulur.

Onun sözlərinə görə, bu, Bakı metrosunda sərnişin sıxlığının azaldılması və dünya praktikasında böyük şəhərlər üçün vacib hesab olunan minimal intervalların təmin edilməsi baxımından mühüm mərhələ olacaq:

"2028-ci ildə "İçərişəhər" istiqamətində deponun inşası ilə bağlı nəzərdə tutulan işlər başa çatdırılacaq və ondan sonra "Qırmızı xətt"də bütün dünya praktikasına və böyüyən şəhərlər üçün vacib olan ən minimal intervalların təmin edilməsi istiqamətində işlər yekunlaşdırılmış olacaq. Yəni minimal interval maksimum 2 dəqiqədən ibarət olacaq".

B.Məmmədov qeyd edib ki, gələcəkdə "Yaşıl xətt" üzrə də intervalın əhəmiyyətli dərəcədə azaldılması mümkün olacaq:

## Maksimal interval 3 dəqiqəyə qədər olacaq

"Yaşıl xətt" üzrə "Xətai" stansiyasından sonra iki stansiya inşa edilərək depo infrastrukturu ilə təmin olunandan sonra həmin istiqamətdə maksimal interval 3 dəqiqəyə qədər olacaq".

Bəxtiyar Məmmədov deyib ki, bu dəyişikliklər "Bakı Metropoliteni"nin qarşıdakı dövr üçün əsas prioritetlərindən biri olan sərnişinlərin tələbatının daha səmərəli qarşılanmasına xidmət edəcək: "Bir sözlə, qarşıdakı dövrdə "Bakı Metropoliteni"nin əsas vəzifəsi sərnişinlərin tələbatı mənzərəsində intervalları və sıxlığı azaltmaqdır".

QSC rəsmisinin sözlərinə görə, dövlət proqramına uyğun olaraq 10 yeni stansiyanın inşası və xətlər arasında keçidlərin yaradılması nəticəsində Bakı metrosunun bütün xətlərinin bir-biri ilə inteqrasiyası tam təmin ediləcək: "Şəhərin mərkəzindən ətrafına doğru sərnişinlərimizin hərəkəti baxımından yerin altında kifayət qədər istiqamətlər təşkil olunacaq. Yəni sərnişin özü seçim etməyə başlayacaq". O, vurğulayıb ki, bu, Bakıda nəqliyyatda rahatlığın artırılması baxımından mühüm layihələrdən birinə çevriləcək.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4486**
**Sifariş: 1075**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova